# *Dualar*



ver. 28/2025

Siz Məni çağıracaqsınız,
gəlib Mənə dua edəcəksiniz,
Mən də sizi eşidəcəyəm.
Məni axtaracaqsınız,
əgər bütün qəlbinizlə axtarsanız,
tapacaqsınız.
*(Yeremya peyğəmbərin kitabı 29:12-13)*

*BU KİTAB*
*AZƏRBAYCAN RESPUBLİKASININ*
*DİNİ QURUMLARLA İŞ ÜZRƏ*
*DÖVLƏT KOMİTƏSİNİN*
*İCAZƏSİ İLƏ*
*(DK-1929/F SAYLI MƏKTUB)*
*ÇAP EDİLİB.*

*2023*

# *Mündəricat*

*Dua nədir?..........................................4*

*I Ümumi dualar...................................8*

*II Səhər və axşam duaları....................29*

*III Yemək üçün dualar........................37*

*IV Qısa və təsirli dualar......................39*

*V Himnlər.........................................43*

*VI  Məryəm Ana..................................70*

*VII Müqəddəslərin duaları................111*

*VIII Mələklər...................................140*

*IX Çarmıx yolu.................................145*

*X Tövbə duaları................................177*

*XI Tövbə Sirri..................................189*

†

## Dua nədir?

Dua münasibətdir, bizi Yaradan və bizi Sevən Rəbb Allah ilə. O hər şeyə qadirdir, hər şeyi bilir, kamildir, bizi tanıyır, bütün ehtiyaclarımızi bilir.

“Sözlərimi dilə gətirməmişdən əvvəl, Ya Rəbb, hamısını tamamilə bilirsən.”

*(Zəbur 139:4)*

Buna baxmayaraq, Əbədi Olan bizi ünsiyyətə, söhbətə çağırır. Dua ilə Tanrını dəyişməyəcəyik, O artıq kamildir, Onun planları da kamildir və onları heç kim dəyişə bilməz. Lakin dua ilə özümüzü və dünyanı dəyişə bilərik ki, dünyamız Rəbb Allahdan daha çox lütf ala bilsin. Misal: necə ki işıq bağlı bir evə girə bilməz, Tanrının lütfü bağlı ürəyə, günahla kütləşmiş bir qəlbə girə bilməz.
Dua isə ürəyin pəncərələrini, qapılarını açır və Rəbbin nuru bizə daxil olur.

Dua magiya deyil, məcburiyyət söhbəti yoxdur, Tanrı bizi azad şəkildə yaratdı, O, robotlar istəmədi, azad insanlar istədi. Adəm və Həvva ilə başlayarkən, insanlar azad seçim edir, Xeyir və ya Şər.
Tanrı pisliyi istəmir, günahı istəmir, bizim səhv yollara getməyimizi istəmir, lakin, O, BİZİ İSTƏYİR, azadlığımızı istəyir və buna görə seçimlərimizə hörmət edə-edə yol göstərir. Buna görə insanlar öz azadlığından sui-istifadə edərkən, günah edə bilər, bunun nəticəsində, hətta cəhənnəmə gedə bilər, baxmayaraq ki, Allah onların cəhənnəmə getməyini istəmir. O, bizə azadlıq verdi və buna görə həm də bu seçim mövcuddur.
Cəhənnəm Tanrının işgəncə yeri deyil, amma Yaxşı Olanı inkar edənlər o yerdə və o vəziyyətdə əbədi olaraq yaxşılıqsız olacaq, Məhəbbət Olanı inkar edənlər əbədi olaraq məhəbbətsiz olacaq, Pak və Kamil Xoşbəxtliyi inkar edənlər artıq heç vaxt xoşbəxt olmayacaq…



# Şam duanın rəmzidir.

Necə ki şam qaranlığı işıqlandırır,
eyni ilə dua həyatlarımızı nurlandıra bilər.
İnsan şamı yandıranda, fikirlərini daha
rahat cəmləşdirə bilər, sakitləşə bilər.
Lakin xatırlamalıyıq ki,
şam özü duasız heç bir xeyir vermir,
axı dünyanı Yaradan bizdən şam istəmir,
həyatlarımızı istəyir, eyni ilə şeytan bir
şamdan qorxmur,
əsl və səmimi duadan qorxur.

†

Dua böyük bir anlamdır,
qoy hər insan ona aydın olan dildə,
ürəyində, həyatında dua etsin.
Duaların müxtəlif şəkilləri var: söz ola
bilər, mahnı ola bilər, sükut, iş, hətta göz
yaşları da gözəl və dərin bir dua ola bilər.

Bu şeyləri Tanrının əllərinə etibar edəndə, duamız bizim Allah ilə ünsiyyətimizin ifadəsi olur, bizi Rəbbə yaxınlaşdıra bilər, hətta çarmıxdan belə böyük bir lütf gələ bilər. Yenə də dua ilə biz Allahı dəyişmirik, amma dua ilə Külli-ixtiyar Rəbbin yaxşılığı bizim ürəklərimizi və dünyanı dəyişdirir və belə olanda biz Rəbb ilə yaşayırıq.

Dua ilə istəklərimizi Var Olan Rəbb Allaha bildirmirik, axı biz kimik ki, Ona məsləhət verək? O, bizə lazım olanları bizdən daha yaxşı bilir! Duada ilk olaraq Allahın istəklərinə fikir verməyə çalışırıq, qoy həyatımızda Allahın iradəsi olsun. Buna görə Tanrıdan yalnız pul, əşyalar, sağlamlıq və s. istəmək avtomatik olaraq bir dua deyil. Axı biz deyirik ki,

"Ya Rəbb, qoy Sənin iradən olsun"

onda necə ola bilər ki, insanlar dua edəndə Allaha yalnız öz iradənlərini və planlarını desinlər?

# I   Ümumi dualar

## Xaç işarəsi

Ata, Oğul və Müqəddəs Ruhun adı ilə.
Amin.

†

## Atamız duası

*(İncil, Mt 6:9-13)*

Ey göylərdə Olan Atamız!
Adın Müqəddəs tutulsun, Sənin Səltənətin gəlsin,  göydə olduğu kimi, yerdə də Sənin iradən olsun.
Gündəlik çörəyimizi bizə bu gün ver; və bizə borclu olanları bağışladığımız kimi, bizim borclarımızı da bağışla.
Və bizi sınağa çəkmə, lakin bizi şərdən xilas et.  Çünki səltənət, qüdrət və izzət əbədi olaraq Sənindir!
Amin.

## Mələyin salamı

*(İncil, Lk 1:28 1:42)*

Salam, mübarək Məryəm!
Rəbb Səninlədir.
Sən qadınlar arasında bəxtiyarsan
və Sənin bətninin Səmərəsi İsa bəxtiyardır.
Müqəddəs Məryəm, Allah Anası,
indi və ölüm saatımızda
biz günahkarlar üçün dua et.
Amin.

†

## Müqəddəs Üçlüyə həmd

Ataya, Oğula və Müqəddəs Ruha indi də,
həmişə də, əbədi olaraq da həmd olsun.
Amin.

†

## Mərhumlar üçün dua

Ya Rəbb, mərhumlara əbədi sülh ver,
Qoy onlara əbədi nur saçsın.
Sülh içində istirahət etsinlər.
Amin.

†

# Gəl, ey Müqəddəs Ruh

Gəl, ey Müqəddəs Ruh, Göndər sonsuz
işığın səmavi şüasını. Gəl, ey yetimlər
Atası. Gəl, ey nemətlər qaynağı.
Gəl, ey qəlbin nuru. Sən gerçək təsəlliçi,
Sən səxavətli qəlblərin işıq saçan
Qonağısan, incə sərinlik Sənsən.
Zəhmətdən dinc rahatlıq, bürküdə
təravət mehi, ağlayan zaman təsəlli,
səmanın mübarək Nuru.
Nur çilə sadiqlərin, möminlərin qəlbinə.
Yardımın olmadan, insanın gücü olmaz,
Şərdən qorunmaq olmaz.
Yu təmiz olmayanı, islat quruyub qalanı,
Sağalt zərər dəyəni, yumşalt qəddarlaşanı,
Qızdır üşüyüb donanı, düz yola qoy azanı.
Bütün etiqadçılarına möhkəm ümid ver
Yeddiqat müqəddəslik ver,
heyrətamiz mükafat ver
Xilasedici çıxış ver
və əbədi səadət ver.
Amin.

## Müqəddəs Ruh gəl,

Daxili gərginliyimizi azadlığa çevir,
Həyəcanımızı dinc bir sükuta çevir,
Narahatlığımızı dinc etimada çevir,
Qorxumuzu  Sənə olan sarsılmaz bir
imanla dəyişdir, Acılarımızı
Mərhəmətinin şirinliyinə dəyişdir,
Qəlbimizin qaranlığını yumşaq işığa çevir,
Laqeydliyimizi səmimiyyətə çevir,
Gecəmizi Öz nuruna çevir,
Qəlbimizin qışını Sənin baharına çevir,
Əyri yollarımızı düzləndir,
Boşluğumuzu doldur,
Qürurumuzdan bizi təmizlə,
Təvazökarlığımızı artır,
İçimizdə yüngül sevgini yandır,
İçimizdəki şəhvəti söndür,
Sən gördüyün kimi özümüzü görək,
Vəd verdiyin kimi Səni tanıyaq
Və "Ürəyi təmiz olanlar nə bəxtiyardır,
çünki Allahı görəcəklər" sözündə
xoşbəxtliyi tapaq. Amin.

## Həvarilərin Kredosu

İman edirəm. Yeri və göyü yaradan
Külli-ixtiyar Ata Allaha
və Onun Yeganə Oğlu,
Müqəddəs Ruhdan döllənmiş,
Bakirə Məryəmdən doğulmuş,
Ponti Pilatın hökmü altında əzab çəkmiş,
çarmıxa çəkilmiş, ölmüş və dəfn olunmuş,
ölülər aləminə enmiş,
üçüncü gün dirilmiş,
göylərə qalxmış,
külli-ixtiyar Ata Allahın sağında əyləşmiş,
oradan diriləri və ölüləri mühakimə
etməyə gələcək, Rəbbimiz İsa Məsihə
iman edirəm. Müqəddəs Ruha,
Müqəddəs Ümumdünya Kilsəsinə,
Müqəddəslərin ünsiyyətinə,
günahların bağışlanmasına,
bədənin dirilməsinə,
əbədi həyata iman edirəm.
Amin.

## Anima Christi

Məsihin Qəlbi, məni təqdis et.
Məsihin Bədəni, məni xilas et.
Məsihin Qanı, məni suvar.
Məsihin qabırğasından axan su, məni yu.
Məsihin əzabları, məni möhkəm edin.
Ey xeyirxah İsa, məni eşit.
Yaralarında məni gizlət.
Qoyma Səndən uzaqlaşım. Şər
düşməndən
məni qoru. Ölüm saatımda məni çağır
və yanına gəlməyi  mənə əmr et ki,
Sənin müqəddəslərinlə
Səni əbədi olaraq mədh edim.
Amin.

†

Ulu Tanrı! İnanıram, Sənə səcdə edirəm,
Sənə güvənirəm və Səni sevirəm.
Sənə inanmayan, Sənə səcdə etməyən
Sənə güvənməyən və Səni sevməyən
insanların hamısı üçün
Səndən mərhəmət istəyirəm.

†

Rəbb İsa Məsih,
Sən mənim Rəbbimsən,
Sən mənim Həyatımsan.
İman edirəm ki, məni sevə-sevə
Həyatıma gəlmək istəyirsən.
Mənə şəfa vermək,
Məni xilas etmək istəyirsən.
Gəl ürəyimə, gəl həyatıma,
Gəl canıma, gəl sözlərimə.
Qoy mən də Səni sevim,
Dünəndən çox, sabahdan az.
Amin.

†

## Qoy Ali Müqəddəs Ənamlar

*

Rəbbimiz İsa Məsihin
həqiqi Bədəni və Qanı
hər zaman izzətləndirilsin.

†

# Tantum Ergo

Müqəddəs sirri qeyd edək,
Bəşəriyyət diz çöksün.
Qədim ayin yenisiylə
Artıq əvəz olunsun.
Çox zəif hisslərimizə
İman, sevgi yar olsun.

Ata və Vahid Oğluna
Ən yüksəkdə həmd olsun.
Bütün şərəf və qüdrət,
Bol bərəkət var olsun.
İkisindən gələn Ruha
Əbədi izzət olsun.
Amin.



†

# Həyat yoldaşı üçün

Ya Rəbb!
Həyat yoldaşım üçün dua edirəm.
Ona xeyir-dua ver ki, bütün pisliklərdən,
günahlardan, pis vərdişlərdən uzaq olsun,
onu qoru ki, ailəmiz xoşbəxt olsun.
Mənə kömək et ki, onu başa düşüm,
onu olduğu kimi qəbul edim.
Bizə ağıl ver ki, gündəlik çətinliklərlə
mübarizə apara bilək,
bizə xeyir-dua ver ki,
bir yerdə yaşaya bilək,
bizə həlimlik ruhu ver ki,
məğrur olmayaq.
Ey Kulli-ixtiyar Tanrı,
Sən hər şeyə qadirsən,
Öz məhəbbətinlə bizim ailəmizi qoru
və kömək et ki,
ümidimiz, imanımız və sevgimiz
daha böyük olsun.
Amin.

## Ruzi bərəkət duası

Ya Xudavənd, Sənə şükürlər olsun, Sənə böyük izzət olsun. Mən, zəif və günahkar itirilmiş bəndən kimi, Sənə yalvarıram. Sən solan torpaqlarını canlandırırsan, yağışlar yağdırırsan, bəşəriyyətə ruzi verirsən, çünki məhəbbətin əbədidir! Mənə rəhm et, həyatıma xeyir-dua ver, gözlərimi aç, həqiqəti görüm və Sənin yolunla gedim, qəlbimi dəyişim, vəfalı olsun. Gecə-gündüz Sənə yalvarıram, məndən uzaq durma, əsl və pak xoşbəxtliyi tapım. Çətinliklərim çoxdur, günahlarım çoxdur, şübhələrim çoxdur, ya Rəbb, məni xilas et, Sənin Kəlamın mənə nur versin. Həyatımda, ailəmdə, işimdə, münasibətlərimdə, çətinliklərimdə Sənin lütfün olsun. Kömək et, ruzi-bərəkət ilə Səni izzətləndirə bilim. Ey əbədi Rəbb Allahım, hər zaman Sənin iradən olsun. Amin.

## Rəbbi tanımayanlar üçün

Əziz Tanrım, Səni tanımayan
bacı-qardaşlar üçün dua edirəm: onlara
Xeyir-dua ver, sülhün ilə onları qoru,
Ürəklərinə məhəbbət ver ki,
Məhəbbəti tanısınlar,
Qəlblərinə həqiqət ver ki,
Həqiqəti tanısınlar,
Onlara mərhəmət et ki,
Sənin Mərhəmətini görsünlər; bilsinlər ki,
bizi yaratdın, bizə azad iradə verdin
və günahlardan təmizləmək üçün,
Öz Kəlamını, İsa Məsihi göndərdin.
Ey Allah, doğrudan bizi o qədər sevdin ki,
ölümə qalib gəldin
və bizə yeni həyat verdin.
Sənə hər kəs şükür etsin,
daim mədhlər oxusun,
çünki Sən ən Ucasan, ən Mərhəmətlisən,
bizi Sevənsən və Müqəddəssən,
hər şey üçün Sənə minnətdarıq.
Sənə həmd olsun, ya Rəbb.
Amin.

# Özümüzü Ataya təslim etmə duası

Ata, özümü Sənə təslim edirəm!
Sən Sadiqsən: həyatımı
Sənin əllərinə təslim edirəm.
Sən Hikmətlisən: düşüncələrimi
Sənin hüzuruna gətirirəm.
Sən Mərhəmətlisən: ürəyimi
Sənə təqdim edirəm.
Sən Müqəddəssən: müqəddəs olma
arzumu Sənə əmanət edirəm.
Sən Yaxşısan: buna sevinirəm.
Sən Comərdsən: Sənə bənzəməyi
arzu edərək Sənə baxıram.
Sən Atasan: özümü daima
Sənin rəhbərliyinə təslim edirəm.
Ata, buradayam, məni al!
Mən Səninəm, Sənin övladınam.
Balaca bir uşaq kimi sevincliyəm
və Sənin istədiklərini etmək üçün
bütün qəlbimlə Sənə tərəf yönəlmişəm.
Mənim üçün məqsədin nədirsə,
qoy elə olsun.
Amin.

## Evin divarlarına xeyir-dualı su səpəndə dua:

Ya Rəbb,
yalvarıram,
qoy şeytan və onun köməkçiləri
bu yerdən çıxıb getsin,
qoy onların təsiri yox olsun.
Bütün ailəmi,
ey Xudavənd,
Sənin müqəddəs əllərinə həsr edirəm.
Ey müqəddəs Məryəm,
öz dualarınla bizi qoru,
bu evini qoru,
qoy pis ruhlar buraya qayıda bilməsin
və ailəmi bir də narahat eləməsin.
Amin.

## Xoşbəxt bir ölüm üçün dua

Ey Rəbbim, Sənə yalvarırıq, ölüm saatımızda Müqəddəs Sirlərin vasitəsilə yenilənməyimizi və bütün günahlarımızdan təmizlənməyimizi, beləcə sevinclə mərhəmətinin qollarına alınmağı qazanmağı bizə nəsib et. Rəbbimiz İsa Məsih vasitəsilə. Amin.

## Qızıl ox

Ən müqəddəs, ən mübarək, ən ibadət ediləsi, ən sirli və tərifi olmayan Allahın Adı göydə, yer üzündə və yerin altında, Allahın bütün yaratdıqları və Rəbbimiz İsa Məsihin qurbangahdakı ən Müqəddəs Sirrində olan Müqəddəs Ürəyi tərəfindən daima ucaldılsın, xeyir-dua verilsin, sevilsin, ibadət olunsun və mədh edilsin.

*(Bu dua Rəbbimiz tərəfindən Tourslu Karmalitə Rəhbərlərinə 1843-də dinə küfrün kompensasiyası üçün vəhy edilmişdir: "Bu qızıl ox ürəyimi şirin-şirin deşib keçəcək və dinə küfr səbəbilə yaranan yaraları sağaldacaq")*

†

# Allah Mərhəmətinə rozari duası




başlanğıcda:
"Atamız"
"Salam Məryəm"
"İman edirəm"

böyük muncuq dənəsində:
Əbədi Ata, Sənə bizim
və bütün dünyanın günahlarının əfvi üçün
* Sevimli Oğlun, Rəbbimiz İsa Məsihin, Bədəni və Qanını, Canını və İlahiliyini təqdim edirəm.

kiçik muncuq dənəsində on dəfə:
Onun əzabları xətrinə * bizə və bütün dünyaya qarşı mərhəmətli ol.

son duası (3 dəfə oxunur):
Müqəddəs Allah, Müqəddəs Güclü, Müqəddəs Ölməz * bizə və bütün dünyaya qarşı mərhəmətli ol.

# İlahi Mərhəmət Novenası
# GÜN 1
# Böyük Cümə

"Bu gün bütün bəşəriyyəti, xüsusən də bütün günahkarları Mənim yanıma gətirin və onları Mənim mərhəmət dəryama qərq edin. Bununla Mənə can itkisinin qərq etdiyi acı kədərdə təsəlli verəcəksiniz."

Ey Mərhəmətli İsa, günahlarımıza deyil, bizə mərhəmət edən və bizi bağışlayan sonsuz xeyirxahlığına bax, hamımızı Ən Mərhəmətli olan Qəlbinin məskənində qarşıla və heç vaxt bizi Oradan qaçmağa qoyma. Bunu Ata və Müqəddəs Ruhla Səni birləşdirən məhəbbətin vasitəsilə diləyirik. (burada öz niyyətlərinizi bildirin...)

Əbədi Ata, Mərhəmətini bütün bəşəriyyətə və xüsusən də, İsanın Ən Mərhəmətli Qəlbində yer almış yoxsul günahkarlara çevir. Onun ağır Əzablarına görə bizə rəhm et ki, Mərhəmətinin qüdrətini əbədi olaraq izzətləndirə bilək. Amin.

# GÜN 2
# Müqəddəs Şənbə

"Bu gün Mənə din xadimlərinin və ruhani olanların ruhlarını gətirin və onları mənim dərk edilməz Mərhəmətimə təslim edin. Məhz onlar mənim ağrılı əzaba tab gətirməyimə dəstək oldular. Onların vasitəsilə Mənim Mərhəmətim insanlığa gedib çatır."

Mərhəmətli İsa, Sən bütün yaxşılıqların mənbəyisən, Sənin xidmətinə həsr olunmuş kişilərdə və qadınlarda lütfünü artır ki, onlar mərhəmətli işlər görsünlər və həmin işləri görən hər kəs göylərdəki Mərhəmət Atasını izzətləndirsinlər.

(burada öz niyyətlərinizi bildirin...)

Əbədi Ata, mərhəmətli Nəzərlərini üzüm bağında olan seçilmişlərinin yığıncağına – din xadimlərinə və ruhanilərin ruhlarına çevir; və onları Öz nemətinin gücü ilə gözəlləşdir. İçində onların da olduqları Oğlunun Qəlbinin məhəbbəti üçün onlara Öz Gücünü və İşığını ver ki, başqalarını xilas yoluna yönəltsinlər və sonsuz Mərhəmətini daima və əbədi olaraq tək səslə tərənnüm etsinlər. Amin.

# GÜN 3
# Pasxa Günü

"Bu gün bütün Ruhani və Saleh Ruhları Mənim yanıma gətirin və onları Mərhəmətimin dəryasına təslim edin. Bu ruhlar Xaç Yolumda mənə təsəlli verdi. Onlar əzab dəryamın ortasında bir damla təsəlli idilər”. Mərhəmətli İsa, mərhəmət xəzinəsindən hamıya, hər birimizə çoxlu lütflər bəxş edirsən. Bizi Öz Mərhəmətli Qəlbinin məskəninə qəbul et və heç vaxt Oradan qaçmağa imkan vermə. Biz bu lütfü Ürəyində səmavi Ataya şiddətlə yanan Sənin ən gözəl Məhəbbətinlə Səndən diləyirik.

(burada niyyətlərinizi bildirin...)

Əbədi Ata, mərhəmətli nəzərlərini sadiq ruhlara, Oğlunun mirasına çevir. Onun kədərli Əzabları naminə, onlara xeyir-dua ver və onları daimi himayənlə əhatə et. Beləliklə, onlar heç vaxt məhəbbətdən məhrum olmasınlar və müqəddəs iman xəzinəsini itirməsinlər, əksinə, bütün Mələklər və Müqəddəslərin ordusu ilə sonsuz Mərhəmətini daima izzətləndirsinlər. Amin.

# GÜN 4
## Pasxa Həftəsinin Birinci Günü

"Bu gün iman etməyənləri, inanmayanları və Məni tanımayanları yanıma gətirin. Çünki Kədərli Əzablar zamanı Mən onlar haqqında düşünürdüm və onların gələcək səyləri Qəlbimə təsəlli verdi. Onları Mərhəmət dəryama təslim edin." Çox mərhəmətli İsa, Sən bütün dünyanın Nurusan. Rəbbə iman etməyənlərin və Səni hələ tanımayanların ruhlarını Mərhəmətli Qəlbinin məskəninə qəbul et. Qoy Sənin lütfünün nuru onları işıqlandırsın ki, onlar da Sənin ecazkar mərhəmətini bizimlə birlikdə izzətləndirsinlər və onları Rəhmli Qəlbinin məskənindən atma.

(burada niyyətlərinizi bildirin...)

Əbədi Ata, mərhəmətli nəzərlərini Sənə iman etməyənlərin və Səni hələ tanımayanların İsanın Ən Mərhəmətli Qəlbində təslim olanların ruhlarına çevir. Onları İncilin nuruna tərəf çək. Bu insanlar bilmir ki, Səni sevmək nə böyük xoşbəxtlikdir. Onlar da Sənin mərhəmətinin nemətini əbədi olaraq izzətləndirsinlər. Amin.

# GÜN 5
# Pasxa Həftəsinin İkinci Günü

"Bu gün Kilsəmdən ayrılanların Ruhlarını Mənim yanıma gətirin və onları Mənim Mərhəmət dəryama təslim edin. Ağrılı Əzablarım zamanı onlar Mənim Bədənimi və Qəlbimi, yəni Kilsəmi parçaladılar. Onlar Kilsə ilə birliyə yenidən qayıdanda yaralarım sağalır və bu yolla Əzablarımı yüngülləşdirirlər."

Mərhəmətli İsa, Xeyirin Özü, Sən Nurunu axtaranlardan əsirgəmirsən. Kilsəndən ayrılanların ruhlarını Ən Mərhəmətli Qəlbinin məskəninə qəbul et. Onları Öz Nurunla Kilsənin birliyinə cəlb et və onlara Mərhəmətli Qəlbinin məskənindən uzaqlaşmağa imkan vermə; Qoy onlar da Sənin Mərhəmətinin nemətini izzətləndirmək üçün gəlsinlər.

(burada niyyətlərinizi bildirin...)

Əbədi Ata, Mərhəmətli nəzərlərini Oğlunun Kilsəsindən ayrılanların, sənin xeyir-dualarından uzaq olan və səhvlərində inadkarlıqla sənin lütflərindən sui-istifadə edənlərin ruhlarına çevir. Onların səhvlərinə deyil, öz Oğluna olan məhəbbətinə və Onun onlar üçün çəkdiyi ağrılı əzablara bax, çünki onlar da Onun Ən Mərhəmətli Qəlbinə bağlıdırlar. Qoy onlar da Sənin böyük Mərhəmətini əbədiyyən izzətləndirsinlər. Amin.



# GÜN 6
## Pasxa Həftəsinin Üçüncü Günü

"Bu gün Mənə zərif, təvazökar ruhları və kiçik uşaqların ruhlarını gətirin və onları Mənim Mərhəmətimə təslim edin. Bu ruhlar Mənim Qəlbimə ən çox yaxın olanlardır. Ağrılı əzablarım zamanı mənə təsəlli verdilər. Mən onları qurbangahımın keşiyində dayanacaq yer üzünün mələkləri kimi gördüm. Mən onlara bütün lütf selimi tökürəm. Təvəkkülümlə təvazökarlara üstünlük verirəm".

Ey mərhəmətli İsa, Sən özün demisən: "Məndən öyrənin, çünki mən ürəyi həlim və təvazökaram". Bütün zərif, təvazökar ruhları və balaca uşaqların ruhlarını Mərhəmətli Qəlbinin məskəninə qəbul et. Bu ruhlar bütün cənnəti şövqləndirir və səmavi Atanın sevimliləridir. Onlar Allahın taxtı qarşısında ətirli bir gül dəstəsidir; Allah Özü onların qoxusundan ləzzət alır. Ey İsa, bu ruhların Sənin

Rəhmli Qəlbində əbədi məskəni var, onlar dayanmadan sevgi və mərhəmət himnini oxuyurlar.

(burada niyyətlərinizi bildirin...)

Əbədi Ata, mərhəmətli nəzərlərini İsanın Ən Mərhəmətli Qəlbində yer alan, Sənin ən üstün və sonsuz Mərhəmətini izzətləndirən və ehtiramla yayan ruhlara çevir. Ey Külli İxtiyar, bu ruhlar canlı Müjdədir; əlləri mərhəmət əməlləri ilə doludur, ürəkləri sevinclə dolur, Sənə Mərhəmət tərənnümü oxuyurlar!

İlahi, Sənə yalvarırıq:

Sənə olan ümid və etibarlarına görə onlara mərhəmətini göstər.

İsanın onları ömürləri boyu, xüsusən də ölüm anında sonsuz Mərhəmətinə səcdə edəcək, bol Mərhəmətinə rəğbət bəsləyəcək ruhları Öz izzəti kimi qoruyacağına dair verdiyi vədinin yerinə yetirilməsini təmin et.

Amin.

# GÜN 7

## Pasxa Həftəsinin Dördüncü Günü

"Bu gün Mənə, xüsusilə, Mərhəmətimi tərifləyən, izzətləndirən ruhları gətirin və onları mərhəmətimə təslim edin. Bu ruhlar Mənim Əzablarımdan ən çox kədərlənənlər və Ruhuma ən dərindən daxil olanlardır. Onlar Mənim Mərhəmətli Qəlbimin canlı surətləridir. Bu ruhlar Əbədi Səltənətdə xüsusi parıltı ilə parlayacaqlar. Onların heç biri alova qərq olunmayacaq, xüsusən də, ölüm saatında hər birini müdafiə edəcəyəm."

Qəlbi Məhəbbətlə dolu olan, Mərhəmətli İsa, Mərhəmətinin böyüklüyünü xüsusilə izzətləndirən və ehtiramla yanaşan ruhları Ən Rəhmli olan Qəlbinin məskəninə qəbul et. Bu ruhlar Allahın Qüdrəti ilə qüdrətlənirlər. Ey İsa, onlar bütün bəlaların və çətinliklərin içində Sənin Mərhəmətinə güvənərək irəli gedirlər və Səninlə birləşiblər. Onlar bütün bəşəriyyəti

çiyinlərində daşıyırlar. Bu ruhlar sərt bir şəkildə mühakimə olunmayacaq, habelə bu həyatdan ayrılarkən Sənin Mərhəmətin onları əhatə edəcək.

(Burada niyyətlərinizi bildirin...)

Əbədi Ata, Mərhəmətli nəzərlərini İsanın dərin Mərhəmətinə və Ən Mərhəmətli Qəlbinə aid olan, Səni izzətləndirən və Sənə rəğbət bəsləyən ruhlara çevir. Ey Uca Allah, bu ruhlar canlı Müjdədir; onların əlləri salehlik əməlləri ilə, ürəkləri sevinclə doludur və Sənə Mərhəmət tərənnümünü oxuyurlar!

İlahi, Sənə yalvarıram: Sənə olan ümid və etibarlarına görə onlara Mərhəmətini göstər. Qoy həyatları boyu, xüsusən də, ölüm anlarında
bu dərk edilməz Mərhəmətinə
rəğbət bəsləyəcək
ruhlara İzzəti naminə
İsanın onları müdafiə edəcəyi barədə verdiyi vədi tamamlansın.
Amin.

# GÜN 8
## Pasxa Həftəsinin Beşinci Günü

"Bu gün Ərafda olan canları Mənim yanıma gətirin və onları Mərhəmətimin dərinliyinə təslim edin.
Qoy Mənim qanımın selləri onların yanan alovlarını soyutsun.
Bütün bu canlar Mənim tərəfimdən çox sevilir. Onlar Mənim ədalətimə cavab verirlər. Onlara rahatlıq gətirmək indi sizin ixtiyarınızdadır. Kilsəmin xəzinəsindən bütün gözəllikləri alın və onların hamısına lütf qazandırın.
Ah, kaş siz onların çəkdikləri əzabları bilsəydiniz, onlara daim ruhun sədəqəsini verər və Ədalətimə borclarını ödəyərdiniz".

Ən Mərhəmətli olan İsa,
Sən Özün dedin ki, mərhəmət istəyirsən; buna görə də Mərhəmətli Qəlbinin məskəninə Sənin üçün çox əziz olan,

lakin yenə də ədalətinə cavab verməli olan əzab çəkən ruhları gətiririk.
Qoy Ürəyindən fışqıran Qan və Su axınları Ərafın alovunu söndürsün ki,
Mərhəmətinin gücü orada da izzətlənsin.

(burada niyyətlərinizi bildirin...)

Əbədi Ata, mərhəmətli nəzərlərini Ərafda əzab çəkən və Ən Mərhəmətli Ürəkdə məhəbbətlə əhatə olunmuş ruhlara çevir. Sənin Oğlun, İsanın kədərli Əzabları ilə və Müqəddəs Ruhun əhatə etdiyi bütün ağrılarla Sənə yalvarırıq: Öz ədalətli nəzərin altında olan ruhlara mərhəmət göstər. Onlara başqa cür deyil, sevimli Oğlun İsanın Yaraları vasitəsilə bax; çünki biz Sənin yaxşılıq və Mərhəmətinin həddi-hüdudu olmadığına inanırıq.
Amin.

# GÜN 9
## Pasxa Həftəsinin Altıncı Günü

"Bu gün imanda ılıq ruhları Mənə gətirin və onları Mərhəmətimin dərinliyinə təslim edin. Ən çox bu ruhlar Qəlbimi yaraladılar. Zeytun bağında olanda Ruhumun ən dəhşətli əzablarını bu ılıq ruhlara görə çəkdim. Buna görə, "Atacan, əgər iradən varsa, bu qədəhi məndən uzaqlaşdır, onlar üçün xilasın ümidi mənim mərhəmətimə qaçmalarıdır" deyə fəryad etdim.

Ən mərhəmətli İsa, Sən Mərhəmətin Özüsən. Biz Sənin Mərhəmətli Qəlbinin məskəninə ılıq ruhları gətiririk. Qoy saf Məhəbbətinin alovunda Səni dərin əzabla dolduran və cəsədlərə bənzəyən bu ılıq ruhlar bir daha alovlansın.

Ey İsa, onlara Mərhəmətinin
hər şeyə qadir olduğunu göstər,
onları Məhəbbətinin tam alovuna çək
və onlara müqəddəs məhəbbətini bəxş et,
çünki heç bir şey Sənin gücündən
kənarda deyil.

(burada niyyətlərinizi bildirin...)

Əbədi Ata, mərhəmətli nəzərlərini İsanın
Sonsuz Mərhəmətli Qəlbinə bürünmüş ılıq
ruhlara çevir. Mərhəmətli Ata, Oğlunun
ağrıları və Çarmıxda çəkdiyi üç saatlıq
əzabları üçün Sənə yalvarırıq:
Qoy onlar da
Sənin Mərhəmətinin dərinliyini
izzətləndirsinlər.
Amin.

# Ürəyin duası / İsanın duası

Təsbeh(çetki) üstündə meditativ və uzun bir duadır, 100 ya da 1000 dəfə təkrarlanır. Təsbeh kömək edir ki, insan rəqəmlərə yox, sözlərə fikir verir, saymır, dua edir.



**Ya Rəbb, İsa Məsih,**
**Allahın Oğlu,**
**mən günahkara**
**rəhm et.**

**İncil/Matta 6:7-8**

Dua edəndə bütpərəstlər kimi boşboğazlıq etməyin. Çünki onlar düşünür ki, çox söz söyləməklə eşidiləcəklər. Siz onlara bənzəməyin! Çünki Atanız nələrə ehtiyacınız olduğunu siz Ondan diləməzdən əvvəl bilir.

**İncil/Luka 5:4b**

«Qayığı **dərinliyə** aparın və torlarınızı balıq tutmaq üçün suya atın».

Təkrarlanan dua canlı iman ilə dərinliyə aparır, mömin sözlərin mənasını dərk etməyə çalışır. Necə ki nəfəs almaq bədən üçün avtomatikdir, belə də, duamız qəlbimizin nəfəsi olsun.

başqa variantlar: Ya Rəbb, Sənə təşəkkür edirəm!

ya: Ey Allahım, Sən yaxşısan, qoy mən də yaxşı olum.

ya: Tanrım, mənim Sənə ehtiyacım var, mənimlə ol.

†

## Bir işə başlamazdan əvvəl kömək duası

Sənə yalvarırıq, ey Rəbbimiz,
bizə rəhbərlik et.
Edəcəyimiz hər şeyi Sənin lütfün olan
ilham ilə edək və bizə hər zaman kömək
et. Beləcə hər duamız və əməlimiz Səndə
başlayıb Səndə qurtarsın.
Rəbbimiz Məsih İsa vasitəsilə
Amin.

†

## Sülh üçün dua

Ey Rəbbim, lütfünlə bizə sülh bəxş et ki,
günlərimizi Sənin mərhəmətinin köməyilə,
bütün xəstəliklərdən
və günahdan azad olaraq keçirək.
Bunu Rəbbimiz Məsih İsanın adına
Səndən diləyirik.
Amin.

# İlahi Hikmətin Taxtı, Müqəddəs Rəbbimizin Müqəddəs Başına dua

Müqəddəs Başın hikməti,
mənə bütün işlərimdə rəhbərlik et.
Ey müqəddəs qəlb,
sevgi alovunla yandır məni.

*(İlahi İradə, Yaddaş və Anlayış şərəfinə*
*üç Doksologiyanı* (Ataya, Oğula və...) *oxuyun)*

Ey İlahi Hikmətin taxtı
və Müqəddəs Qəlbin,
bütün məqsəd və məhəbbətini yönləndirən
və istiqamətləndirən Qüdrət;
Qoy indi və həmişə bütün ağıllar
Səni tanısın, bütün qəlblər Səni sevsin
və bütün dillər səni tərifləsin.
Amin.

# Günahkar bəndənin ox duası

†

Ey Rəbb İsa Məsih,
Ey Yaşayan Allahın Oğlu,
**Mənə mərhəmət göstər,**
Mən Sənin günahkar bəndənəm.

Ey Rəbb İsa Məsih,
Ey Yaşayan Allahın Oğlu,
**Məni xilas elə,**
Mən Sənin günahkar bəndənəm.

**Ey Rəbb İsa Məsih,**
**Ey Yaşayan Allahın Oğlu...**

...mənə kömək elə...
...məni paklaşdır...
...məni saflaşdır...
...məni əfv et...
...məni uçurumun əlindən qurtar...
...yaralarımı sağalt...

**...mən Sənin günahkar bəndənəm.**

## Ey Rəbb İsa Məsih,
## Ey Yaşayan Allahın Oğlu...

†

...məni rahat su ilə pakla...
...şeytanın hiylələrini məhv elə
    və məni xilas et...
...qoyunlarını bəslə və mənə müştaq ol...
...dodaqlarımı sənə
    həmd söyləmək üçün aç...
...mənə doğru danışmağı öyrət
    və mənə rəhbərlik et...
... imanda məni möhkəmləndir...
...mənə imtahanlarda əzm ver...
...üzünün nuru ilə mənə nur saç...
...günahlarımı sil
    və mənə mərhəmət göstər...
...mənə yolunu göstər...

**...mən Sənin günahkar bəndənəm.**

## Ey Rəbb İsa Məsih,
## Ey Yaşayan Allahın Oğlu...

†

...mənə yolunda bələdçilik et...
...məni günahlarımdan dirilt...
...qəflət yuxusundan məni oyat...
...məni ayağa qaldırmaq üçün tələs...
...mənim xəstə ruhuma nəzər sal...
...Sənin doğrularını anlamaqda
qavrayışımı artır...
...susuzluğumu sirab et...
...mənə şəfqət göstər...
...məni razılığında saxla...
...günahlarımı əfv etməklə məni təqdis et...
...məni qəlb xəstəliklərindən xilas elə, ...
...xəstəliklərimə şəfa ver...
...adımı həyat kitabına yaz...

**...mən Sənin günahkar bəndənəm.**

Amin.

# II Səhər və axşam duaları




Rəbbi, Onun qüvvətini arayın,
Daim hüzurunu axtarın.
*(Bibliya, 1 Saln 16:10)*

† 

## Səhər Duası[1]

Allahım, səhər tezdən Səni çağırıram.
Dua etməyimə və düşüncələrimi
cəmləşdirməyimə kömək et:
Bunu tək edə bilmirəm.
İçimdə qaranlıq var, ancaq Səndə işıq var.
Mən tənhayam, amma Sən məni
tərk etmirsən. Ürəyimdə acizəm,
ancaq Səndə kömək var. Mən narahatam,
ancaq Səndə sülh var. İçimdə acı var,
amma Səndə səbr var. Yollarını başa
düşmürəm, amma mənim üçün
lazım olan yolu bilirsən.
Məni azadlığa qaytar
və indi yaşamağımı təmin et ki,
Sənin qarşında
və öz qarşımda cavab verim.
Rəbb, bu gün nə gətirsə belə,
qoy yalnız Sənin Adın tərifələnsin.
Amin.

## Səhər duası[2]

Tanrım, qarşında əyilir və bütün qəlbimlə
Səni sevdiyimi bildirirəm.
Məni yaratdığın,
mənə iman verdiyin və bütün gecə məni
qoruduğun üçün Sənə təşəkkür edirəm.
Gün ərzində edəcəyim bütün işlər
Sənin iradənlə olub ucalığını artırsın.
Məni günah işləməkdən qoru.
Lütfün mənimlə
və bütün sevdiklərimlə olsun.
Amin.

## Səhər Duası[3]

Ya Rəbb, bu günü sakit və asanlıqla
yaşamağım üçün mənə kömək et;
böyük gücünə güvənərək, rahatlıqla Sənə
arxalanım; iradəni səbirlə və səmimiyyətlə
qəbul edim; başqalarını sülh
və sevinclə qarşılayım; sabahı isə üz-üzə,
inamla, cəsarətlə qarşılayım. Amin.

†

## Səhər Duası[4]

Allahım, bütün düşüncələrimi, sözlərimi, hərəkətlərimi və əziyyətlərimi Sənə təqdim edirəm; bu gün Səni incitməyim, ancaq sədaqətlə Sənə qulluq etməyimi və hər şeydə müqəddəs iradəni yerinə yetirməyim üçün lütfünü mənə verməyini xahiş edirəm.
Amin.

†

## Səhər Duası[5]

Xidmət etdiyimiz Rəbb Allah,
bu gün Səni ürəyimizin bütün düşüncələrində, dodaqlarımızın bütün sözlərində və əllərimizin bütün işlərində izzətləndirməyimizə kömək et və beləcə
Sənin xidmətçilərin olacağıq.
Rəbbimiz İsa Məsih vasitəsilə.
Amin.

†

## Gün ərzində edilən dua[1]

Uca Tanrım! Bu günün ortasında dayanıb,
Səni bu dua anına dəvət edirəm. Bu gün
sevə bilmədiyim hər hansı bir yol üçün
bağışlanma diləyirəm. Qüruruma,
paxıllığıma, acgözlüyümə, xəsisliyimə,
şəhvətimə, yalqızlığıma və hirsimə görə
Səndən bağışlanma diləyirəm.
Bir daha bu günü Sənə həsr edirəm.
Təvazökarlıq, mülayimlik,
xeyirxahlıq, təmizlik, çalışqanlıq
və səbir üçün dua edirəm.
Rəbb, incə səsini dinləməyimə kömək et
Rəhbərliyinə və lütfünə güvənirəm.
Həyatım Sənindir, əziz Rəbb.
Həyatım Sənindir. Qoy Səndən
heç nə əsirgəməyim. Bu gün mükəmməl
iradəni və vəzifələrimi yerinə yetirim.
Səni sevirəm, əziz Rəbb.
Səni bütün qəlbimlə sevirəm.
Səni və başqalarını bütün gücümlə
sevməyimə kömək et. Amin.

†

# Gün ərzində edilən dua [2]

Rəbb İsa, işlərini görmək üçün
əllərimi Sənə verirəm.
Sənin yoluna getmək üçün
ayaqlarımı Sənə verirəm.
Sən gördüyün kimi görmək üçün
gözlərimi Sənə verirəm.
Sənin sözlərini danışmaq üçün
dilimi Sənə verirəm.
Sən düşündüyün kimi düşünmək üçün
ağlımı Sənə verirəm.
Ruhumu Sənə verirəm ki,
daxilimdə dua edəsən.
Sənə özümü verirəm ki, içimdə böyüyəsən.
Beləliklə, Rəbb İsa, bu Sənsən ki,
Məndə yaşayır, işləyir və dua edirsən.
Amin.

†

Rəbb Allah, mənə xatırlat ki,
bu gün mənimlə baş verəcək heç bir şey
Sənin və mənim daşıya bilməyəcəyimiz
qədər ağır olmayacaq. Amin.

†

## Axşam duası[1]

Qapqara gecəni aydınlandıran və
qaranlıqdan sonra günəşi yüksəldən
Rəbbimiz, yeni günün şəfəqində kilsə ilə
birlikdə Sənə mədh edə bilməyimiz üçün
şeytanın hiylələrindən uzaq durub bu
gecəni keçirməyimizə kömək et. Bunu
Səninlə  və Müqəddəs Ruhla birlikdə,
indi və əbədiyyən hökm edən Oğlun,
Rəbbimiz İsa Məsihin adı ilə
Səndən diləyirik. Amin.

†

## Axşam duası[2]

Tanrım, qarşında əyilir və bütün qəlbimlə
Səni sevdiyimi bildirirəm.
Məni yaratdığın, mənə iman verdiyin
və bütün günü məni qoruduğun üçün
Sənə təşəkkür edirəm. Məni yatarkən də
bütün təhlükələrdən qoru və səhv etsəm,
bunu əfv et. Lütfün mənimlə
və bütün sevdiklərimlə olsun. Amin.

†

## Axşam duası[3]

Hər şeyə qadir olan Allahım,
gün boyu qəlblərimizi,
bədənlərimizi,
duyğularımızı,
hərəkətkərimizi,
sözlərimizi
yönləndir və təqdis et.
Verdiyin əmrlərə görə
yaşayaq və işləyək,
belə ki,
indi Sənə layiq olub
əbədi həyatda da
Səninlə birlikdə yaşayaq.
Amin.

# III Yemək üçün dualar



Beləliklə, nə yeyirsinizsə,
nə içirsinizsə,
nə edirsinizsə,
hər şeyi Allahın izzəti üçün edin.
*(İncil, 1 Korinflilərə 10:31)*

## Yeməkdən öncə oxunan dua

Bütün Yaradılışı Sevən,
göylərdəki quşlara yemini verən,
təbiəti gözəlliklərlə təchiz edən Allahım,
bütün bu yaratdıqların üçün
Sənə şükr edirik.
Bizə verdiyin bu yeməklər üçün də
Səni tərənnüm edir və Şanına tərif deyirik.
Yer üzündəki bütün qullarından
lazımlı qidaları əsirgəmə.
Amin.

## Yeməkdən sonra oxunan dua

Allahım, bizə verdiyin bütün yeməklər
üçün Sənə Şükr edirik.
Birlikdə bölüşdüyümüz bu çörəklə
həm Sənə, həm qardaş-bacılarımıza
və həm də bütün insanlara sevgi ilə
bağlı olaq. Amin.

# IV Qısa və təsirli dualar

Bütün həyatı bir gözəl duaya çevirən gecə-gündüz edilmiş qısa dualar.



†

Rəbb sənə xeyir-dua versin.

†

Həlim və itaətli İsa,
ürəyimizi öz Ürəyinə bənzər yarat!

†

Rəbb İsa Məsihin adı ilə
mənə qarşı olan pisliyi, cadugərliyi və
lənəti kəsirəm. Ey Tanrım, xahiş edirəm
ki, həyatımda hər ruhani qaranlıq
Məsihin qanı ilə məhv olunsun.

†

İsa, Məryəm, Yusif, sizi sevirik,
qəlblərimizi xilas edin!

Sınaqlardan əl çəkirəm,
qürurdan əl çəkirəm,
əxlaqsızlıqdan əl çəkirəm,
dünyəvi sərvətdən əl çəkirəm,
kədərdən əl çəkirəm,
Rəbdən uzaqlaşdıran fikirlərdən
əl çəkirəm!
Ya Rəbb, mənə rəhm et!

İsa, Sənə iman edirəm!
İsa, Sənə ümid edirəm!
İsa, Səni sevirəm!
Sənə iman etməyənlər,
Sənə ümid etməyənlər
və Səni sevməyənlər üçün
dua edirəm!

†

Ya Rəbb, Sənin əllərinə bu problemi,
xətrimə dəyən insanı, çətinliyi
və öz gələcəyimi verirəm.

†

Ya Rəbb, Öz qiymətli qanı ilə
qəlbimi yu və ürəyimə şəfa ver,

†

Ya Rəbb, içimdə olan qorxumu məhv et,
və yaralıma şəfa ver.

†

Amin, ya Rəbb, Sənin iradənə “Amin”
olsun həyatımda!

†

Mənə sarsılmaz iman ver, ya Rəbb,
və Səndən olmayan şeylərdən
məni azad et.

# V Himnlər



Hər zaman Rəbbə alqış edəcəyəm,
Ona daim mənim dilim həmd edəcək.
*(Zəbur 34:1)*

# Benediktus-Zəkəriyyanın ilahisi

*(İncil, Lk 1:68-79)*

Alqış olsun İsrailin Allahı Rəbbə!
Çünki Öz xalqına nəzər salıb onları satın aldı.
O, qulu Davudun nəslindən bizə qüdrətli
Xilaskar yetirdi. Qədimdən bəri Öz müqəddəs
peyğəmbərlərinin vasitəsilə bildirdiyi kimi
düşmənlərimizdən və bizə nifrət edənlərin
əlindən bizi xilas etdi. Beləcə ata-babalarımıza
mərhəmət göstərib öz müqəddəs Əhdini
xatırladı. Atamız İbrahimə and içdiyi kimi bizə
elə güc verdi ki, düşmənlərimizin əlindən
qurtulub həyatımız boyu qorxmadan Rəbbin
önündə müqəddəslik və salehliklə Ona ibadət
edək. Ey körpə, sən Haqq-Taalanın peyğəmbəri
adlanacaqsan, çünki Rəbbin önündə gedəcəksən,
Onun yolunu hazırlayacaqsan. Onun xalqına
günahlarının bağışlanması ilə xilas olunmaları
barədə bildirəcəksən. Axı Allahımızın ürəyi
mərhəmətlidir, Onun bu mərhəmətinə görə
Ucalarda bizim üçün Günəş doğacaq ki,
zülmətdə və ölüm kölgəsində oturanların üzərinə
nur saçsın, ayaqlarımızı sülh yoluna yönəltsin.
Ataya, Oğula və Müqəddəs Ruha indi də,
həmişə də, əbədi olaraq da həmd olsun. Amin.

# Magnifikat

## Məryəm Ananın ilahisi

(İncil, Lk 1:46-55)

Qəlbim Rəbbi ucaldır, ruhum Xilaskarım
Allaha görə şadlanır, çünki O, Öz qulunun
yazıq halını gördü. Bundan sonra bütün
nəsillər məni bəxtiyar sayacaq,
çünki Qadir Olan mənim üçün
böyük işlər etdi, Onun adı müqəddəsdir!
Onun mərhəməti də nəsildən-nəslə
Ondan qorxanlara göstərilər.
O, qolu ilə qüdrətli işlər gördü, ürəklərində
qürurla düşünənləri pərən-pərən saldı.
Hökmdarları taxtlarından endirdi,
məzlumları yüksəltdi. Acları nemətlərlə
doydurdu, varlıları isə əliboş yola saldı.
Rəbb qulu İsrailin imdadına çatdı,
ata-babalarımıza vəd etdiyi kimi İbrahimə
və onun nəslinə əbədilik mərhəmət
göstərməyi yada saldı.
Ataya, Oğula və Müqəddəs Ruha
indi də, həmişə də, əbədi olaraq da
həmd olsun. Amin.

†

# Gloria in Excelsis Deo

Göylərdəki uca Allaha həmd olsun
və yer üzündəki xoşməramlı insanlara
sülh gəlsin. Səni tərif edirik.
Səni ucaldırıq. Qarşında diz çökürük.
Sənə həmd edirik.
Uca Allah, göyün Hökmdarı,
hər şeyə qadir Ata, ey Allahımız,
uca Əzəmətin üçün Sənə şükür edirik.
Rəbb İsa Məsih, Yeganə Oğul,
Rəbb Allah,
Allahın Quzusu, Atanın Oğlu,
dünyanın günahlarını təmizləyən Sən,
bizə rəhm et; dünyanın günahlarını
təmizləyən Sən, dualarımızı qəbul et; uca
Allahın sağında əyləşən Sən, bizə rəhm et.
Çünki yalnız Sən müqəddəssən,
yalnız Sən Rəbbimizsən, yalnız Sən
uca Allahsan. Ey Məsih İsa, Müqəddəs
Ruhun birliyində Ata Allahın izzətindəsən.
Amin.

†

## Şimeonun ilahisi

(İncil, Lk 2:29-32)

Ey Pərvərdigar, indi Sənin sözünə görə
mən – Sənin qulun arxayın ölə bilərəm.
Çünki bütün xalqların gözləri önündə
hazırladığın xilası, millətlərə aşkar edən
nuru, xalqın İsrail üçün də izzəti
Öz gözlərimlə gördüm.

†

## Te Deum

Səni mədh edirik, ey Allah
Səni mədh edirik,
ey Allah, Səni etiraf edirik, ey Rəbb,
Ey əbədi Ata, Səni bütün dünya tərifləyir.
Bütün mələklər, bütün səmalar, bütün
qüvvələr, keruvlar və seraflar Səni
durmadan çağırırlar:
Müqəddəsdir, müqəddəsdir, müqəddəsdir
Ordular Rəbbi Allah.
Səmalar və yer
İzzətinin böyüklüyü ilə doludur.

Şöhrətli həvarilər xoru,
mədhedici peyğəmbərlər dəstəsi,
nurlu şəhid qoşunu Səni tərifləyir.
Bütün Kainatda müqəddəs Kilsə Səni
etiraf edir. Hədsiz əzəməti olan Atanı,
möhtərəm, yeganə və həqiqi Oğulu
və Təsəlliverici Müqəddəs Ruhu.

Məsih, Sən izzət Padşahısan,
Sən həmişə Var Olan Allahın Oğlusan.
İnsanın xilası üçün
Bakirənin qoynundan çəkinmədin.
Ölümün tikanına qalib gəlib
imanlılara Səmavi Padşahlığı açdın.
Sən Allahın sağ tərəfində
Atanın izzətində oturmusan.

İman edirik ki,
Sən bizi mühakimə etmək üçün
gələcəksən. Buna görə yalvarırıq:
qiymətli Qanınla
satın aldığın qullarına kömək et,
onları əbədi olaraq
Öz izzətli müqəddəslərinə aid et.

Ey Rəbb, xalqını xilas et,
mirasına xeyir-dua ver.
Onları idarə et, əbədi olaraq
onları yüksəlt.
Bütün günlər ərzində
Sənə tərif oxuyacağıq,
əbədi olaraq Adını izzətləndirəcəyik.
Rəbb, bu gün bizə günahsız qalmaqda
kömək et. Bizi bağışla,
ya Rəbb, bizi bağışla.
Ya Rəbb, mərhəmətin üzərimizdə olsun,
Sənə ümid bağlayırıq.
Ya Rəbb, Sənə ümid bəsləmişəm
və heç vaxt utanmaram.
Amin.

# İsanın Müqəddəs Ürəyinə Litaniya duası

Ya Rəbb, bizə rəhm et!
İsa Məsih, bizə rəhm et!
Ya Rəbb, bizə rəhm et!

Ey Məsih, dinlə bizi! * Ey Məsih, eşit bizi!

Tanrı – Səmavi Ata
Tanrı – Oğul, dünyanın Xilaskarı
Tanrı – Müqəddəs Ruh
Müqəddəs Üçlük, tək Tanrı
***bizə rəhm et!***

***İsanın Ürəyi***

Əbədi Atanın Oğlu, *bizə mərhəmət et*
Müqəddəs Ruhdan
Məryəmin bətnində bədən aldın,
Atanın Kəlamı ilə Bir olan,
Əbədi möhtəşəmliyə layiq olan,
Allahın Müqəddəs Məbədi,
Külli-ixtiyarın Məskəni,
Allahın evi və cənnətin qapısı,
Yanan Sevgi ocağı,
Ədalətin və Sevginin mənbəyi,
Sevgi və Yaxşılıq ilə dolu olan,
Bütün xeyirxahlığın mənbəyi,

***İsanın Ürəyi*** — ***bizə mərhəmət et!***

*İsanın Ürəyi*

Bütün izzətə layiq olan,
Bütün ürəklərin Şahı və Mərkəzi,
Müdrikliyin və Biliyin Xəzinəsi,
Allahın Bütövlüyünün Məskəni,
Atanın sevinc tapdığı ürək,
Sənin tamamlığından
hamımız qəbul etdik,
Sonsuz ülvinin istəyi,
Səbirli və Mərhəmətli olan,
Səni çağıranlara Səxavətli olan,
Həyatın və Müqəddəsliyin Mənbəyi,
Günahlarımıza görə əzab çəkən,
Təhqirlərə məruz qalan,
Təqsirlərimizə görə yaralanmış olan,
Ölümə qədər itaətli olan,
Nizə ilə deşilmiş olan,
Hər təsəllinin qaynağı,
Həyatımız və Dirilişimiz,
Sülhümüz və Barışığımız,
Günahlarımıza görə verilən Qurban,
Sənə ümid edənlərin Xilası,
Sənin lütfündə ölənlərin Ümidi,
Bütün Müqəddəslərin Xoşbəxtliyi,

*bizə mərhəmət et!*

Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizə rəhm et!
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizi dinlə!
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizə mərhəmət et!

†

Həlim və itaətli İsa,
ürəyimizi Öz Ürəyinə bənzər yarat!

Dua edək: Qüdrətli və Əbədi Allah,
Sevimli Oğlunun Ürəyinə bax
və biz günahkarlar üçün
çəkdiyi əzabları gör.
Sənin Mərhəmətinə sığınan bizlərə
bağışlanma ver. Bunu Səninlə
və Müqəddəs Ruhla birlikdə,
indi və əbədiyyən hökm edən Oğlun,
Rəbbimiz İsa Məsihin adı ilə
Səndən diləyirik.
Amin.

†

# İsanın Müqəddəs Adına Litaniya duası

Ya Rəbb, bizə rəhm et!
İsa Məsih, bizə rəhm et!
Ya Rəbb, bizə rəhm et!
Ey Məsih, dinlə bizi! * Ey Məsih, eşit bizi!

Tanrı – Səmavi Ata
Tanrı – Oğul, dünyanın Xilaskarı
Tanrı – Müqəddəs Ruh
Müqəddəs Üçlük, tək Tanrı
***bizə rəhm et!***

İsa, Var Olan Allahın Oğlu,
İsa, Atanın Şəfəqi,
İsa, Əbədi Nurun Parıltısı,
İsa, şərəf Şahı,
İsa, həqiqət Günəşi,
İsa, Bakirə Məryəmin oğlu,
İsa, Məhəbbətə layiq olan,
İsa, ən Gözəl,
İsa, möhkəm Allah,
İsa, gələcək əsrin Atası,
İsa, böyük Məsləhətin Mələyi,
İsa, ən Qadir,
İsa, ən Səbirli,
***bizə rəhm et!***

İsa, ən İtaətli,
İsa, Həlim və Fağır ürəkli,
İsa, İsmətsevər,
İsa, bizi Sevən,
İsa, sülhün Allahı,
İsa, həyat Verən,
İsa, savab iş Örnəyi,
İsa, ruhlarımızın Keşikçisi,
İsa, bizim Allahımız,
İsa, ümid Yerimiz,
İsa, miskinlərin Atası,
İsa, imanlıların Xəzinəsi,
İsa, xeyirxah Çoban,
İsa, gerçək İşıq,
İsa, əbədi Müdriklik,
İsa, sonsuz Xeyirxahlıq,
İsa, Yolumuz və Həyatımız,
İsa, mələklərin Sevinci,
İsa, patriarxların Hökmdarı,
İsa, həvarilərin Öyüdçüsü,
İsa, müjdəçilərin İlhamı,
İsa, şəhidlərin Qalası,
İsa, iman şahidlərinin İşığı,
İsa, bakirələrin İsməti,
İsa, bütün müqəddəslərin Tacı,

***bizə rəhm et!***

Ya Rəbb, bizə rəhm et, ***bağışla bizi, ey İsa!***
Ya Rəbb, bizə rəhm et, ***eşit bizi, ey İsa!***

Hər pislikdən, ***qurtar bizi, İsa!***
Hər günahdan, ***qurtar bizi, İsa!***
Öz qəzəbindən, ***qurtar bizi, İsa!***
İblisin fitnəsindən, ***qurtar bizi, İsa!***
Murdar ruhdan, ***qurtar bizi, İsa!***
Əbədi ölümdən, ***qurtar bizi, İsa!***
Sənin iradənə zidd getməkdən,
Müqəddəs Mücəssəmənin sirri naminə,
Sənin Miladın naminə,
Sənin uşaqlığın naminə,
Sənin ilahi yaşamın naminə,
Sənin zəhmətin naminə,
Sənin ölümqabağı mübarizən naminə,
Sənin çarmıxın və tərk edilmən naminə,
Sənin kədərlərin naminə,
Sənin ölümün və dəfnin naminə,
Sənin dirilmən naminə,
Sənin yüksəlmən naminə,
Sənin təsis etdiyin Müqəddəs
Evxaristiya naminə,
Sənin sevincin naminə,
Sənin şərəfin naminə,

***qurtar bizi, İsa!***

Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * İsa, bizə rəhm et!
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * İsa, bizi dinlə!
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * İsa, bizə mərhəmət et!

Ey Məsih, dinlə bizi * Ey Məsih, eşit bizi!

†

Dua edək: Rəbbimiz İsa Məsih!
Sən demisən: "Diləyin, sizə veriləcək,
axtarın, tapacaqsınız, qapını döyün
və sizə açılacaq". Sənə dua edirik.
Bizə Səni bütün qəlbimizlə, sözlərimizlə
və əməllərimizlə sevməyə və dayanmadan
Səni tərənnüm etməyə kömək ol.
Ya Rəbb, qoy Sənin müqəddəs ismindən
qorxaq və eyni zamanda onu sevək;
Sən heç vaxt Sənə qarşı sevgidə möhkəm
duranları tərk etmirsən, çünki Sən əbədi
olaraq yaşayırsan və hökmranlıq edirsən.
Amin.

# İlahi Mərhəmət Litaniya duası

Ya Rəbb, bizə rəhm et!
İsa Məsih, bizə rəhm et!
Ya Rəbb, bizə rəhm et!
Ey Məsih, dinlə bizi! * Ey Məsih, eşit bizi!

Tanrı – Səmavi Ata
Tanrı – Oğul, dünyanın Xilaskarı
Tanrı – Müqəddəs Ruh
Müqəddəs Üçlük, tək Tanrı

***bizə rəhm et!***

***İlahi Mərhəmət,***

Yaradanın ən böyük ləyaqəti,
Müqəddəsin təsəvvür olunmaz sevgisi,
Müqəddəs Üçlüyün anlaşılmaz sirri,
Allahın ən böyük qüdrətinin ifadəsi,
səmavi ruhları yaradan,
bizi yoxluqdan varlığa çağıran,
bütün kainatı əhatə edən,
bizə əbədi həyat bəxş edən,
bizi layiq olduğumuz cəzadan qoruyan,
bizi günah səfalətindən qurtaran,
bədən almış Kəlamda bizə haqq qazandıran,
Məsihin yaralarından tökülən,
İsanın Müqəddəs Qəlbindən sıçrayan,

***İlahi Mərhəmət***

***Sənə ümid edirik!***

bizə Bakirə Məryəmi mərhəmət Anası
olaraq bəxş edən
Allahın sirlərində olan,
Müqəddəs Ümumdünya Kilsənin
qurulmasında olan,
Müqəddəs ayinlərin təsisində olan
hər şeydən əvvəl vəftiz və tövbə
ayinlərində olan,
qurbangahın və kahinliyin ayinində olan,
bizi müqəddəs imana çağıran,
günahkarların tövbəsində olan,
salehləri təqdis edən,
möminləri kamilləşdirən,
xəstələr və əzablar üçün yardım mənbəyi,
əzab çəkən ürəklər üçün şirin bir rahatlıq,
ümidsiz qəlblərin ümidi,
həyatımızın hər anında bizi müşayiət edən,
bizi mərhəmətlə önə çəkən,
ölüm çağında olanların sülhü,
xilas olunanların səmavi fərəhi,
ərafda olan ruhların rahatlığı və sərinliyi,
bütün müqəddəslərin tacı,
tükənməz möcüzələr mənbəyi,

Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizə rəhm et!
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizi dinlə!
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizə mərhəmət et!

**Rəbb Yaratdıqlarının hər birinə**
**mərhəmət göstərər ***
Ya Rəbb, daim mərhəmətindən
nəğmə oxuyacağam.

**Dua edək:** Mərhəməti sonsuz
və mərhəmət xəzinələri tükənməyən
Allah, bizə mərhəmətlə bax
və mərhəmətinə olan ümidimizi çoxalt ki,
heç vaxt, hətta ən böyük çətinliklərdə belə
ümidimizi üzməyək, amma böyük inamla
Sənin müqəddəs iradənə tabe olaq, hansı ki,
özü də mərhəmətdir. Bunu Səninlə
və Müqəddəs Ruhla birlikdə indi
və əbədiyyən bizə mərhəmət göstərən
Mərhəmət padşahı Rəbbimiz İsa Məsih
vasitəsilə Səndən diləyirik.
Amin.

# Advent Litaniya duası

## (Milada hazırlıq dövrü)

Ya Rəbb, bizə rəhm et!
İsa Məsih, bizə rəhm et!
Ya Rəbb, bizə rəhm et!

Ey Məsih, dinlə bizi! * Ey Məsih, eşit bizi!

Ey Səmavi Ata Allah
Ey Dünyanın Xilaskarı Oğul Allah
Ey Müqəddəs Ruh Allah
Ey Ali-Müqəddəs Üçlük – Bir olan Allah

***bizə rəhm et!***

Hər şeyi Öz vasitəsi ilə yaradan
Əbədi Atanın Kəlamı İsa,
Hər şey Sənin vasitənlə yarandı,
ey Əbədi Atanın Kəlamı İsa,
Atanın Əbədi-Yaşar yeganə Oğlu İsa,
Bəşər olmuş Əbədi və Əzəli Kəlam İsa,
Təcəssüm etmiş Kəlamda
Atanın Məhəbbəti olan İsa,
Bizim üçün Kəffarə olan İsa,
Ata Allah tərəfindən insanı
tapmaq üçün göndərilmiş İsa,
Əhdi-Ətiqdə vəd olunan Məsih İsa,
Peyğəmbərlər tərəfindən vəd olunan İsa,

***bizə rəhm et!***

Mələklərin iqrar etdiyi İsa,
Xalqların gözlədiyi İsa,
Atanın dünyaya göndərdiyi Xilaskar İsa,
Müqəddəs Ruh ilə məsh edilmiş Xilaskar İsa,
Məryəmin oğlu İsa,
İnsan olmuş İsa,
Bizi İlahi Təbiətə şərik edən İsa,
Bizə həyat bəxş etmək üçün gələn İsa,
Azadlığımız olan İsa,
Xilasımız və Ümidimiz olan İsa,
Günaha Qalib olan İsa,
Şəri məğlub edən İsa,
Ey İmmanuel İsa, bizimlə olan Allah,

Bizə qarşı mərhəmətli ol, *bağışla bizi, ey İsa,*
Bizə qarşı mərhəmətli ol, *eşit bizi, ey İsa,*

Hər cür şərdən *xilas et bizi, ey İsa,*
Hər cür günahdan *xilas et bizi, ey İsa,*
Qəddarlaşmaqdan *xilas et bizi, ey İsa,*
Riyadan *xilas et bizi, ey İsa,*
Hər cür qüsurlardan *xilas et bizi, ey İsa,*
Hər cür natəmizlikdən *xilas et bizi, ey İsa,*
Günahda ölməkdən *xilas et bizi, ey İsa,*
Əbədi mühakimədən *xilas et bizi, ey İsa,*

Biz günahkarlar Sənə yalvarırıq,
Lütf edib günahlarımızdan bizi azad et
Lütf edib qəlbimizdə Sənə layiq

bir məkan hazırla,
Təsəllimiz bir tək Sən ol,
Lütf edib bizi Küllü-İxtiyarlığın ilə

hər zaman qoru,
Lütf edib bizi Səltənətinin varislərindən et.

*eşit bizi, ey İsa!*

†

Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu, *bağışla bizi, ya Rəbb!*
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu, *eşit bizi, ya Rəbb!*
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu, *rəhm et bizə, ya Rəbb!*

Dua edək:
Ey Allahımız! Sənin Mövludunu necə bir iman ilə gözlədiyimizi görürsən. Xilasımızın Uca Sirrini sevinc ilə izzətləndirmək üçün qəlblərimizi hazırlamağa bizə yardım et, Sənə yalvarırıq. Amin.

# Həlim olanın Litaniyası

*(kardinal Rafael Merry del Val)*

Ya Rəbb, bizə rəhm et! İsa Məsih, bizə rəhm et!
Ya Rəbb, bizə rəhm et!
Ey Məsih, dinlə bizi! * Ey Məsih, eşit bizi!

Tanrı – Səmavi Ata
Tanrı – Oğul, dünyanın Xilaskarı
Tanrı – Müqəddəs Ruh
Müqəddəs Üçlük, tək Tanrı

***bizə rəhm et!***

Həlim və itaətli İsa *
ürəyimizi Öz Ürəyinə bənzər yarat.

Öz iradəmdən...
Tanınmaq arzusundan...
Sevilmək arzusundan...
Məşhur olmaq arzusundan...
Hörmətli olmaq arzusundan...
Tərifl ənmək arzusundan...
Şərəflənmək arzusundan...
Diqqət mərkəzində olmaq arzusundan...
Başqalarının sadəcə məndən
məsləhət istəməsi arzusundan...
Hamı mənimlə razılaşsın arzusundan...
Təsdiqlənmək arzusundan...

***Ya Rəbb, məni qurtar!***

Başa düşülmək arzusundan...
Ziyarət olunmaq arzusundan...
Alçaldılmaq qorxusundan...
Nifrət olunmaq qorxusundan...
Xor baxılmaq qorxusundan...
Yalançı sayılmaq qorxusundan...
Böhtan qorxusundan...
Unudulmaq qorxusundan...
Ələ salınmaq qorxusundan...
Şübhə edilmək qorxusundan...
Zülmə məruz qalmaq qorxusundan...
Yaralanma qorxusundan...
Tərk olunmaq qorxusundan...
Rədd olunmaq qorxusundan...

***Ya Rəbb, məni qurtar!***

Başqaları
məndən daha çox sevilsin deyə...
***qoy səmimi istəyim, ya Rəbb!***
Başqaları
məndən daha hörmətli olsun deyə...
***qoy səmimi istəyim, ya Rəbb!***
Başqaları böyüsün,
mən isə kiçilim deyə...
***qoy səmimi istəyim, ya Rəbb!***

Başqaları seçilsin,
mən isə kənarda qalım deyə...
*qoy səmimi istəyim, ya Rəbb!*
Başqaları tərifənsin,
mən gözədəyməz qalım deyə...
*qoy səmimi istəyim, ya Rəbb!*
Başqalarına
məndən daha üstünlük verilsin deyə...
*qoy səmimi istəyim, ya Rəbb!*
Bacardığım qədər özüm müqəddəs olum,
lakin başqaları
məndən daha müqəddəs olsun deyə...
*qoy səmimi istəyim, ya Rəbb!*
Gözdən uzaq və kasıb olanda... *qoy sevinim,*
Bədənim və ruhum zəif olanda... *ya Rəbb!*
Heç kim məni düşünməyəndə...
Ən əhəmiyyətsiz iş görəndə...
Heç kim fikrimi soruşmayanda...
Mənə axırıncı yer veriləndə...
Mənə hörmət göstərilməyəndə...
Məni haqsız olaraq danladıqlarında...

**Nə bəxtiyardır
salehlik uğrunda təqib edilənlər!
Çünki Səmavi Padşahlıq onlarındır!**

Amin.

# Müqəddəs Ruha həsr olunan Rozari Duası



Böyük muncuq dənəsində: Ey göylərdə olan Atamız...
Kiçik muncuq dənəsində: Salam, mübarək Məryəm...

**Bizi yaradan Rəbb, bizə mərhəmət et!**
Salam, mübarək Məryəm...

**Bizi xilas edən Rəbb, bizə mərhəmət et!**
Salam, mübarək Məryəm...

**Bizi müqəddəsləşdirən Rəbb,**
**bizə mərhəmət et!**
Salam, mübarək Məryəm...

## Müqəddəs Ruh barədə 5 sirr

1. Ya Rəbb, ürəklərimizi Müqəddəs Ruhun ənamlarının dolğunluğunu qəbul etməyə qadir et.

2. Ya Rəbb, bizə Müqəddəs Ruhun ənamlarını bəxş et, iman, ümid, məhəbbətimizi çoxalt və gücləndir.

3. Ya Rəbb, bizi Müqəddəs Ruh vasitəsilə gücləndir, nurlandır, ilhamlandır, müqəddəsləşdir və yol göstər..

4. Ya Rəbb, qəlblərimizi Müqəddəs Ruhun məhəbbəti ilə alovlandır, dərin təvazökarlıq, həlimlik, güc və müqəddəslik ilə doldur.

5. Ya Rəbb, Səni yalvarırıq, bizə Müqəddəs Ruhun yeddi ənamını və Onun on iki bəhrəsini bağışla, bütün yaxşılığı bəxş et və bizi bütün pisliklərdən qoru.

# İnsan irqinin Padşah İsa Məsihə ithaf etmə aktı

†

*Rəbbimiz İsa Məsihin təntənəli mərasimində möminlərə tam lütf verilir. Kainatın Padşahı, bəşər övladının Padşah Məsihə həsr olunduğunu açıq şəkildə söyləyin (Iesu dulcissime, Redemptor); digər hallarda istifadə üçün qismən güzəşt verilir.*

**Iesu dulcissime, Redemptor**

Ən şirin İsa,
Bəşər nəslinin Xilaskarı, Sənə səcdə edərək bizə yuxarıdan bax. Biz səninik və sənin olmaq istəyirik; lakin sizinlə daha əmin olmaq üçün, baxın, hər birimiz bu gün özümüzü sərbəst şəkildə Sənin Ən Müqəddəs Qəlbinə həsr edirik. Çoxları səni heç tanımayıb; çoxları da sənin əmrlərinə xor baxaraq, səni rədd etdi. Onların hamısına rəhm et, ey mərhəmətli İsa və onları öz Müqəddəs Ürəyinə çək. Ya Rəbb, təkcə Səni heç vaxt tərk etməyən sadiqlərin deyil, Səni tərk edən azğın uşaqların da Padşah ol.

Nəsib et ki,
tezliklə Atalarının evinə qayıtsınlar,
yoxsa yazıqlıqdan və aclıqdan ölməsinlər.
Səhv fikirlərə aldananların və ya ixtilafın
uzaqlaşdığı kəslərin Padşahı olun
və onları haqq limanına və iman birliyinə
çağırın ki, tezliklə bir sürü
və bir Çoban olsun.
Ya Rəbb, Kilsənizə azadlıq
və zərərdən toxunulmazlıq zəmanəti ver;
bütün millətlərə əmin-amanlıq bəxş et;
bir fəryadla yer üzünü qütbdən qütbə
sədalandır: Bizim xilasımızı
yaradan ilahi Qəlbə həmd olsun;
ona əbədi izzət və şərəf olsun.
Amin.

†

# VI Məryəm Ana



Anası xidmətçilərə dedi:
«Sizə nə desə, edin».
*(İncil, Yəhya 2:5)*

†

## Mələyin salamı

*(İncil, Lk 1:28, 1:42)*

Salam, mübarək Məryəm!
Rəbb Səninlədir.
Sən qadınlar arasında bəxtiyarsan
və Sənin bətninin Səmərəsi İsa bəxtiyardır.
Müqəddəs Məryəm, Allah Anası,
indi və ölüm saatımızda
biz günahkarlar üçün dua et.
Amin.

†

## Himayənə Gəlirik

Himayənə gəlirik,
ey Müqəddəs Allah Anası,
dərd içində olduqda dualarımıza
laqeyd yanaşma, lakin həmişə bütün
təhlükələrdən bizi azad et.
İzzətli və Bəxtiyar Bakirə Qız.
Amin.

†

## Salve Regina

Salam, müqəddəs Mələkə,
mərhəmət Anası!
Salam, həyatımız,
sevincimiz və ümidimiz!
Səni çağırırıq, sürgündə
Həvvanın övladları olan biz!
Bu göz yaşları vadisində ağlayaraq,
Sənə ah-naləmizi göndəririk.
Ey Havadarımız,
mərhəmət gözlərini bizə döndər;
və bu sürgündən sonra
bətninin bəxtiyar səmərəsi
İsanı bizə göstər.
Ey mərhəmətli, ey lütfkar, ey sevimli
Bakirə Məryəm!
Amin.

# Rozari Duası

Böyük muncuq dənəsində: Ey göylərdə olan Atamız...

Kiçik muncuq dənəsində: Salam, mübarək Məryəm...

## Sevincli mövzular

1. Məryəmə Xoş Xəbərin verilməsi.
2. Bakirə Məryəmin Elizavetə baş çəkməsi.
3. İsa Məsihin doğulması.
4. Həsretmə.
5. Yeniyetmə İsanın məbəddə tapılması.

## Nurlu mövzular

1. Rəbb İsanın İordan çayında vəftizi.
2. İsa Qanadakı toyda ilk möcüzəsini edir.
3. Allahın Səltənətinin vəzi
   və Allaha tərəf dönməyə çağırış.
4. İsa Məsihin surətinin dəyişilməsi.
5. Evxaristiyanın təyin edilməsi.

## Kədərli mövzular



1. Getsemanidə dua.
2. Qamçılanma.
3. Tikanlı tacın qoyulması.
4. Çarmıx yolu.
5. İsa Məsihin çarmıxa çəkilməsi.

## İzzətli mövzular

1. Dirilmə.
2. Göylərə yüksəlmə.
3. Müqəddəs Ruhun enməsi.
4. Məryəm Ananın göyə çəkilməsi.
5. Bakirə Məryəmin səmavi izzəti ilə taclanması.



†

mövzudan sonra:

**Əzəldən günahsız olan Məryəm,**
Sənin yanına gələn bizlər üçün
Allaha dua et.

**Rəbb İsa Məsih,**
bizim günahlarımızı bağışla,
cəhənnəm alovundan bizi xilas et
və bütün insanları, xüsusilə də
Sənin mərhəmətinə
daha çox ehtiyacı olanları
cənnətə apar.
Amin.



†

## Rozarinin son duası

Ey müqəddəs Allah Anası,
bizim üçün dua et ki,
Məsihin vədlərinin yerinə yetirilməsinə
layiq görülək.

Dua edək: Ey Allah, Yeganə Oğlun
Öz həyatı, ölümü və dirilməsi bahasına,
bizə əbədi xilasın rifahını əldə etdi.
Qoy biz Müqəddəs Bakirə Məryəmin
Rozari sirlərinə ehtiram edərək,
burada düşündüklərimizə bənzəyək
və onların vəd etdiklərini əldə edək.
Rəbbimiz İsa Məsih vasitəsilə.
Amin.

†

†

# *Rozari duası edən Xristianlara Məryəmin 15 vədi:*

†

1. Rozari edərək mənə imanla xidmət edənlər əlamət (işarət) lütfləri alacaqlar.

2. Rozari edən hərkəsə xüsusi müdafiəmi və ən böyük lütfləri vəd edirəm.

3. Rozari cəhənnəmə qarşı güclü bir zireh olacaq, əxlaqsızlığı yox edəcək, günahı azaldacaq və bidətləri məğlub edəcək.

4. Fəzilətin və yaxşı işlərin inkişafına səbəb olacaq; Allahdan ruhlar üçün bol bol mərhəmət alacaq; insanların ürəklərindəki saxta dünya sevgisini bitirəcək və əbədi şeyləri arzulamalarını sağlayacaq. Kaş ki ruhlar özlərinə bu yolla xeyir-dua versələr.

5. Rozari edərək özlərini
mənə əmanət edən ruhlar
məhv edilməyəcəklər.

6. Rozarini səmimiyyətlə oxuyaraq özlərini onun
Müqəddəs Sirrlərini düşünməyə həsr edənlər əsla
bədbəxtliyə düçar olmayacaqlar;
əgər ədalətli olarlarsa,
Allahın lütfündə qalacaqlar
və əbədi həyata layiq olacaqlar.

7. Rozariyə gerçək bir sədaqətlə bağlı olanlar
Kilsənin Sirrləri olmadan ölməyəcəklər.

8. Rozariyə sadiq qalanlar həyatlarında
və ölümlərində, Allahını işığını və bol lütfünü
alacaqlar; ölüm saatlarında cənnətdəki
Müqəddəslərin savablarına
(yaxşı əməllərinə) şərik olacaqlar.

9. Rozariyə sadiq insanları
Ərafdan xilas edəcəyəm.

10. Rozarinin sadiq övladları cənnətdə yüksək dərəcədə şöhrətə layiq olacaqlar.

11. Məndən istədiyiniz hər şeyi Rozari edərək alacaqsınız.

12. Müqəddəs Rozarini yayan hamı ehtiyac anlarında köməyimi görəcəklər.

13. İlahi Oğlumdan, Rozari müdafiəçilərinin həyatları boyu və ölüm saatlarında bütün səmavi məhkəmənin şəfaətini alma imtiyazını verdim.

14. Rozari edən hərkəs mənim övladımdır və tək Oğlum Məsih İsanın qardaşıdır.

15. Rozarimə bağlılıq əvvəlcədən seçilmişliyin böyük bir əlamətidir.

(Müqəddəs Dominik və Alana verilmiş vədlərdir.)

†

# Səmavi Mələkə

(Pasxa dövründə oxunur)

Sevin, ey səmavi Mələkə, halleluya!
Çünki bətnində daşıdığın, halleluya!
Vəd etdiyi kimi, dirildi, halleluya!
Allaha bizim üçün dua et, halleluya!

Bakirə Məryəm, sevin və şadlan,
halleluya! *
Çünki Rəbb, doğrudan da, dirildi,
halleluya!

Dua edək: Ey Allah, Oğlunun,
Rəbbimiz İsa Məsihin dirilməsi vasitəsilə
Sən dünyaya sevinc verdin.
Səndən diləyirik:
Onun Anası,
Bakirə Məryəmin havadarlığı ilə
əbədi həyatın sevincinə çatmaqda
bizə kömək et.
Bunu Səndən Rəbbimiz İsa Məsihin
adına diləyirik. Amin.

Ey hər şeyə qarşı rəhmli olan Bakirə
Məryəm, xatırla ki, əsrlərdən bəri
heç kim eşitməyib ki,
Sənə pənah aparanlardan,
Səninköməyini istəyənlərdən,
Sənin himayəni axtaranlardan kimsə,
Sənin tərəfindən tərk edilib. Bu ümidlə
dolaraq, həlimliklə və günahlarıma görə
qüssə ilə Sənə müraciət edirəm,
ey Bakirə və Ana. Sözlərimə xor baxma,
ey Əbədi Kəlamın Anası,
xahişimi iltifatla dinlə. Amin.
*(Müqəddəs Bernard)*

†

Ey Pakizə Ana, bizi yönəlt və dəstəklə ki,
biz həmişə Oğlunun Kilsəsinin əsl oğul
və qızları kimi yaşaya bilək. Tanrının
iradəsi ilə, Onun izzəti üçün yer üzündə
həqiqət və sevgi bəşəriyyətinin
qurulmasına kömək etmək üçün
öz vəzifəmizi yerinə yetirməyə
bizə yardım et. Amin.
*(Müqəddəs II İoan Pavel)*

# Rəbbin mələyi

Rəbbin mələyi Məryəmə xəbər verdi,
və O, Müqəddəs Ruhdan döləndi.
*Salam, mübarək Məryəm...*

Budur, mən Rəbbin quluyam,
mənə söylədiyin kimi olsun.
*Salam, mübarək Məryəm ...*

Kəlam cism oldu və bizimlə yaşadı.
*Salam, mübarək Məryəm ...*

Ey müqəddəs Allah Anası,
bizim üçün dua et ki,
Məsihin vədlərinin
yerinə yetirilməsinə layiq görülək.

Dua edək: Ya Allah, qəlblərimizi
Öz lütfünlə doldur ki, mələyin xəbəri
vasitəsilə biz Oğlunun cism olmasını
bilək, çarmıxda Onun əzabları və ölümü
ilə dirilmənin izzətinə çataq. Bunu Səndən
Rəbbimiz İsa Məsihin adına diləyirik.
Amin.

# Litaniae Lauretanae

## Məryəm Anaya yalvarışlar

Ya Rəbb, bizə rəhm et!
İsa Məsih, bizə rəhm et!
Ya Rəbb, bizə rəhm et!
Ey Məsih, dinlə bizi! * Ey Məsih, eşit bizi!

Tanrı – Səmavi Ata
Tanrı – Oğul, dünyanın Xilaskarı
Tanrı – Müqəddəs Ruh
Müqəddəs Üçlük, tək Tanrı

***bizə rəhm et!***

Müqəddəs Məryəm
Müqəddəs Allah Anası
Bakirələrin Müqəddəs Bakirəsi
Məsihin Anası
Kilsənin Anası
İlahi lütfün Anası
Tər-təmiz Ana
Çox iffətli Ana
Hər zaman Bakirə Ana
Günahsız Ana
Məhəbbətə layiq Ana

***bizim üçün dua et!***

Heyran olunmağa layiq Ana
Yaxşı məsləhətin Anası
Yaradanın Anası
Xilaskarın Anası
Çox təmkinli Bakirə
Ehtirama layiq Bakirə
Müjdələnməyə layiq Bakirə
Vəsatətçilikdə güclü Bakirə
Mərhəmətli Bakirə
İmanla zəngin Bakirə
Ədalət aynası
Hikmətin mərkəzi
Xoşbəxtliyimizin səbəbi
Müqəddəs Ruhun məskəni
Şərəf məskəni
Sirli Qızılgül
Davud Qülləsi
Şirmayı Qülləsi
Qızıl ev
Əhd sandığı
Səmanın qapısı
Dan ulduzu
Xəstələrin şəfası
Günahkarların sığınacağı
Əzab çəkənlərin təsəllivericisi

*bizim üçün dua et!*

Məsihçilərin köməkçisi
Mələklərin Mələkəsi
Ata-babaların Mələkəsi
Peyğəmbərlərin Mələkəsi
Həvarilərin Mələkəsi
Şəhidlərin Mələkəsi
İman şahidlərinin Mələkəsi
Bakirələrin Mələkəsi
Bütün müqəddəslərin Mələkəsi
Günahsız yaradılan Mələkə
Səmalara çəkilmiş Mələkə
Müqəddəs rozarinin Mələkəsi
Ailənin Mələkəsi
Sülhün Mələkəsi

*bizim üçün dua et!*

Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizə rəhm et!

Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizi dinlə!

Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizə mərhəmət et!

**Ey müqəddəs Allah Anası,
bizim üçün dua et ki,
Məsihin vədlərinin
yerinə yetirilməsinə
layiq görülək.**

Dua edək: Rəbb Tanrımız,
möminlərinin hər zaman
bədən cəhətdən
və ruhən sağlam olmalarını
təmin et və həmişə Bakirə,
çox müqəddəs Məryəmin
şanlı vəsatətçiliyi ilə bizi kədərləndirən
pisliklərdən xilas et,
bizi əbədi sevincə qovuşdur.
Bunu Rəbbimiz İsa Məsihin adı ilə
Səndən diləyirik.
Amin.

†

# Məryəmin Məsum Döllənməsi novenası (9 günlük dua)

*(başlanğıcda)*

Salam, Mübarək Məryəm, Rəbb səninlədir
Sən qadınlar arasında bəxtiyarsan,
misilsiz, yeganə və mükəmməl bakirə,
Tanrı tərəfindən seçilmiş və Onun
tərəfindən əzəldən bütün günahlardan
qurtarılmış, necə ki Həvvanın
günahına görə bizə ölüm gəldi, beləliklə,
Sənin vasitənilə günahsız əbədi
həyat bizə gəldi. Allah səni ilkin günahını
öz qanı ilə yuyan İsa Məsihin
Anası seçdi. Müqəddəs Ana, Adəm və
Həvvanın düşmüş nəslini diriltərək, bu
novenada bizə günahlarla ləkələnməmiş
həqiqi övladların olmaq lüftünü verməyin
üçün Sənə ümidlə dolaraq yalvarırıq.
Müqəddəs Məryəm, xatırla ki, Sən Allahın
anası oldun, öz əzəmət və şan-şöhrətin
üçün deyil, qurtuluşumuz və bütün bəşər
övladının rifahı naminə.

Müqəddəs Məryəm, xatırla ki,
əsrlərdən bəri heç kim eşitməyib ki,
Sənə pənah aparanlardan, Sənin köməyini
istəyənlərdən, Sənin himayəni
axtaranlardan kimsə, Sənin tərəfindən
tərk edilib. Məni tərk etmə,
çünki məni tərk etsən, səhv edərəm.
Səni tərk etməyimə isə
icazə vermə, əksinə,
Sənə olan hörmətim qoy hər gün artsın!
Səndən üç lütf diləyirəm: birincisi, heç
vaxt ölümcül bir günah etməyim;
ikincisi, iman və fəzilətlərlə yaşayım;
üçüncüsü, yaxşı bir ölüm,
və həmçinin də bu novenada
Səndən xahiş etdiyim
xüsusi istəklərim üçün...

*( ...istəkləriniz... )*

**Müvafiq günün duasını oxuyun...**

†

*(sonda)*

Günahsız Döllənmən sonsuz xeyir-dualı olsun, çünki Rəbb Allah Özü Sənin Saflığının parlaqlığı ilə təsirlənərək rəhmə gəlir. Sənə, Səmavi Mələkə, Sənə, Müqəddəs Məryəm, bu günü, ruhumu, həyatımı və ürəyimi həsr edirəm! Allah Anası və mərhəmətli Anam mənə bax və məni öz qayğı və məhəbbətinlə tərk etmə.

**Üç dəfə Salam, Mübarək Məryəm duası…**

İlahi, Müqəddəs Allah Anasının Günahsız döllənməsi ilə Oğlun üçün layiqli bir yaşayış yeri hazırladın. Onu hər cür günahdan qoruduğun kimi, bizi də qoru, İsa Məsihin çarmıxdakı əzabları və Müqəddəs Məryəmin şəfaəti ilə bizə günahdan əziyyət çəkmədən Sənin qarşında dayanmağımızı nəsib et. Rəbbimiz Məsih vasitəsilə.

Amin.

†

*†Məryəmin Məsum Döllənməsi †*

**1-ci gün**

Ey Günahsız Məryəmin Ən Müqəddəs Oğlu və Mərhəmətli Xilaskarımız! Sən Bakirə Məryəmin döllənməsindən etibarən Onu ilkin günahından qurtardın. Sən Müqəddəs Vəftiz vasitəsilə bizə bu lütfü verib, bizi ilkin günah ləkəsindən qurtarırsan. Təvazökarlıqla bakirə Məryəmin şəfaəti ilə Sənə dua edirik, bizə həqiqi məsihçi olmaq lütfünü nəsib et. Amin.

†

*†Məryəmin Məsum Döllənməsi †*

**2-ci gün**

Ey Günahsız Məryəmin Ən Müqəddəs Oğlu və Mərhəmətli Xilaskarımız! Bakirə Məryəmi bütün ömrü boyu günah ağırlığından qorudun. Bizə Günahlarımızdan çəkinməyimizə kömək edir, tövbə yolu ilə isə bizə şəfa verirsən.

Təvazökarlıqla bakirə Məryəmin şəfaəti ilə Sənə dua edirik, ölümcül bir günah etməməyimiz üçün bizə lütf ver və əgər bunu etdiksə, Tövbə ayini vasitəsilə bizi əbədi ölümdən qurtar. Amin.

†

## †*Məryəmin Məsum Döllənməsi* †

## **3-cü gün**

Ey Günahsız Məryəmin Ən Müqəddəs Oğlu və Mərhəmətli Xilaskarımız! Bakirə Məryəmi bütün həyatı boyunca, hətta kiçik bir günahdan belə qorudun. Sənin Padşahlığına layiq olmaq üçün özümüzü getdikcə daha çox təmizləməyimizi bizdən xahiş edirsən. Təvazökarlıqla Sənə dua edirik, Bakirə Məryəmin şəfaəti ilə, hətta yüngül günahlar etməməyimiz üçün lütf və həssas bir vicdana sahib olmaq arzusu bəxş et. Amin.

†

*†Məryəmin Məsum Döllənməsi †*

**4-cü gün**

Ey Günahsız Məryəmin Ən Müqəddəs Oğlu və Mərhəmətli Xilaskarımız! Sən Bakirə Məryəmi günah meylindən qurtardın və ona mükəmməl daxili harmoniya verdin. Təvazökarlıqla, Mərhəmətli Məryəmin şəfaəti ilə Sənə dua edirik, ehtiraslarımızı cilovlamaq və pis meyillərimiz üzərində qələbə qazanmağımızı bizə nəsib et ki, Sənə ruh azadlığı ilə, heç bir nöqsan olmadan xidmət edək. Amin.

†

*†Məryəmin Məsum Döllənməsi †*

**5-ci gün**

Ey Günahsız Məryəmin Ən Müqəddəs Oğlu və Mərhəmətli Xilaskarımız! Döllənmədən bəri Bakirə Məryəmə bütün ilahi nemətlərini bəxş etdin.

Təvazökarlıqla, Bakirə Məryəmin şəfaəti ilə Sənə, Öz qanın vasitəsilə bizə verdiyin ilahi lütfü qiymətləndirməyimizə və Mərhəmət işləri, Müqəddəs Ayinlər və xüsusilə Müqəddəs Birləşmə sayəsində onu çoxaltmağımıza kömək et.
Amin.

†

*†Məryəmin Məsum Döllənməsi †*

**6-cı gün**

Ey Günahsız Məryəmin Ən Müqəddəs Oğlu və Mərhəmətli Xilaskarımız! Döllənmədən bəri Bakirə Məryəmə mükəmməlliyin dolğunluğunda Müqəddəs Ruhun bütün fəzilətlərini və hədiyyələrini bəxş etdin. Təvazökarlıqla, Bakirə Məryəmin şəfaəti ilə Sənə dua edirik, bizə bütün fəzilətlərin və hədiyyələrin dolğunluğunu nəsib et ki, bütün sınaqların öhdəsindən gələk və yaxşı işlər görək.
Amin.

†

*†Məryəmin Məsum Döllənməsi †*

**7-ci gün**

Ey Günahsız Məryəmin Ən Müqəddəs Oğlu və Mərhəmətli Xilaskarımız! Sən Bakirə Məryəmə kamil bir iffət bəxş etdin. Onu bakirələrin mələkəsi və iffətin anası adlandırırıq. Təvazökarlıqla, Bakirə Məryəmin şəfaəti ilə Sənə dua edirik, iffət fəzilətini bizə bəxş et və Müqəddəs Bakirə Məryəmə olan hörmətimiz ilə onu qorumağımıza kömək et.

Amin.

†

*†Məryəmin Məsum Döllənməsi †*

**8-ci gün**

Ey Günahsız Məryəmin Ən Müqəddəs Oğlu və Mərhəmətli Xilaskarımız! Sən Bakirə Məryəmə Tanrıya qarşı alovlu məhəbbət bəxş etdin. Təvazökarlıqla, Bakirə Məryəmin şəfaəti ilə Sənə dua edirik, bizə Sənə qarşı həqiqi

məhəbbət bəxş et, çünki Sən Rəbbimiz və Tanrımız olan ən yüksək səmavi Xeyir və Xeyirxahçımızsan, hər şeyi itirmək ən azı bir günahla səni incitməkdən daha yaxşıdır.
Amin.

†

*†Məryəmin Məsum Döllənməsi †*

**9-cu gün**

Ey Günahsız Məryəmin Ən Müqəddəs Oğlu və Mərhəmətli Xilaskarımız! Bakirə Məryəmə bədəndə göylərə qalxmaq və Taxtınının sağında durmaq üçün lütf nəsib etdin. Təvazökarlıqla Bakirə Məryəmin şəfaəti ilə bizə yaxşı ölüm lütfünü bəxş et ki, Müqəddəs ayinlər vasitəsilə hazırlanaraq günahdan əziyyət çəkmədən Sənin əbədi sevincinə daxil olaq, Sənin Anan
və müqəddəslərlə birlikdə Səni sonsuza qədər izzətləndirək.
Amin.

# Məsihçilərin köməkçisi olan Bakirə Məryəm vasitəsilə alınan xeyir-dua

†

***Keşiş:*** Köməyimiz Rəbbin adındadır
***Möminlər:*** Göyləri və Yeri Yaradanın

Salam mübarək Məryəm! Rəbb səninlədir
sən qadınlar arasında bəxtiyarsan
və sənin bətninin səmərəsi İsa bəxtiyardır.
Müqəddəs Məryəm Allah Anası
indi və ölüm saatımızda biz günahkarlar
üçün dua et. Amin.

Himayənə gəlirik, ey Müqəddəs Allah Anası, dərd içində olduqda dualarımıza həqarətlə yanaşma, lakin həmişə bütün təhlükələrdən bizi azad et. İzzətli və Bəxtiyar Bakirə Qız. Amin.

***Keşiş:*** Məryəm Məsihçilərin köməkçisi.
***Möminlər:*** Bizim üçün dua et.

***Keşiş:*** Ya Rəbb, duamıza qulaq as.
***Möminlər:*** Qoy fəryadımız Sənə çatsın.
***Keşiş:*** Rəbb sizinlə olsun.
***Möminlər:*** Və sənin ruhunla.

***Keşiş:*** Dua edək.
Qüdrətli və əbədi Allah, Sən, Müqəddəs Ruh vasitəsilə şanlı Bakirə Məryəm Ananın bədənini və canını Oğlunun layiqli bir məskəni olması üçün hazırladın: bizə Onun şəfaəti ilə Onu xatırlayaraq bütün pisliklərdən və əbədi ölümdən qurtulmağı nəsib et. Rəbbimiz İsa Məsih vasitəsilə.
***Möminlər:*** Amin.

***Keşiş:*** Hər şeyə qadir Allah
Ata, Oğul və Müqəddəs Ruhun xeyir-duası üzərinizə (üzərinə) ensin və hər zaman sizinlə (səninlə) olsun.

# Müqəddəs Məryəmə güvən və yardım istəyi

Mübarək Məryəm,
Allah səni məsihçilər üçün yardımçı təyin
etdi. Anamız ol, bu evin qoruyucusu ol.
Xahiş edirik bizə kömək et.
Bizi hər zərərdən qoru:
oddan, seldən, şimşəkdən,
fırtınadan, zəlzələdən, oğrulardan,
pis insanlardan, düşmən hücumlarından
müharibədən və hər bir bəladan.
Bizə xeyir-dua ver, bizi qoru,
və övladlarını, burada yaşayan hamını
müdafiə et. Bizi hər bədbəxtlikdən
və qəzadan xilas et, amma hər şeydən
əvvəl bizə günahdan uzaqlaşmaq və yaxşı
işləri etmək üçün lazımı lütfü nəsib et.

Məryəm, Məsihçilərin köməkçisi *
bizim üçün dua et!

Biz Sənə sonsuza qədər güvənirik. Amin.

**Əziz övladlarım!**
bu gün sizi gününüzü qısa və coşğun dualarla doldurmağa çağırıram."

*(Bakirə Məryəm, Medjugorje, 25.07.2005)*

Mənə verə biləcəyiniz ən gözəl dua nədir?

***"İsa, Məryəm, mən Sizi sevirəm, insanları xilas edin!"***

Daha hansı gözəl duanı arzulayırsan? Sevgidən gələn bir əməl bir insanın əbədi xilasını həll edə bilər. Vaxt itirməyin, çünki hər sevgi hərəkəti bir insanın canını təmsil edir. Bütün hədiyyələr arasında mənə verə biləcəyiniz ən böyük hədiyyə sevgi ilə dolu bir gündür. Mən istəyirəm ki, siz səhər yuxudan oyandıqdan sonra bütün günü axşam yatağınıza girənədək durmadan, "İsa, Məryəm, mən Sizi sevirəm, insanları xilas edin!" duasını təqdim edəsiniz.

*(İsanın Maria Konsolata Betrone bacıya və hər kəsə dediyi sözlər)*

Hər gün rozari (təsbeh) duasını oxuyaraq, sevgi əməli kimi bu duanı edin və siz yüzlərlə insanın xilasına səbəb olacaqsınız.

# Düyünləri açan
## Məryəm Anaya novenası
(9 günlük dua)



1. † Ata, Oğul və Müqəddəs Ruhun adı ilə, Amin. †
2. Başlanğıc duası.
2. Peşmanlıq duasını de, günahlarının bağışlanmasını dilə və onları bir daha etməmək üçün möhkəm bir qərar ver.
3. **Rozarinin ilk üç sirrini dua et.**
4. Sonra novenanın müvafiq günündə olan duanı elə (1-9-cu gün).
5. **Rozarinin son iki sirrini dua et.**
6. „Düyünləri açan Məryəm Anaya dua" ilə bitir.

## *Başlanğıc duası*

Müqəddəs Məryəm, sən bütün ömrün boyu Allahın hüzurunda idin, sən Atanın iradəsini təvazökarlıqla qəbul etdin və şeytan heç vaxt səni öz çaşqınlığına sala bilmədi. Qanadakı toyda şəfaət etdiyin kimi çətinliklərimizə də Oğlunla şəfaət edirsən. Təvazökarlığın və səbrinlə bizə həyatımızın düyünlərini necə açmağın nümunəsini göstərdin. Sən hər zaman Anamız olaraq qalırsan və bu yolla bizi Rəbbimizə bağlayan bağı bərpa edirsən və işıqlandırırsan. Müqəddəs Ana, Allah Anası və bizim Anamız, həyatımızın düyünlərini ana qəlbi ilə açan Sənə yalvarırıq, niyyətimizi əllərinə qoyuruq

*(dua niyyətini bildir......)*

hər bir düyünü və dolaşığını açmağını xahiş edirik. Öz mehribanlığın, şəfaətin və himayənlə bizi bütün pisliklərdən qoru və Allahla qovuşmağa mane olan bağları aç. Bizə nəsib et ki, hər cür çaşqınlıqdan və səhvlərdən azad olaraq hər şeydə Rəbbi tapaq, ürəyimizi Ona bağlayaq və həmişə bacı-qardaşlarımızda Ona xidmət edək.

Amin.

# 1 İlk gün



Əziz Müqəddəs Ana, övladlarını boğan düyünləri açan Müqəddəs Məryəm, lütfkar əllərini mənə uzat. Bu qovşağı və onun həyatımda yaratdığı bütün mənfi nəticələri bu gün sənə həvalə edirəm ……….. Mənə əzab verən, məni bədbəxt edən, səninlə və Xilaskarım olan İsa Məsihlə birləşməyə mane olan bu düyünü sənə verirəm. Mən sənə tərəf qaçıram, düyünləri açan Məryəm, çünki sənə güvənirəm və bilirəm ki, sənə gələn və səndən kömək istəyən günahkar uşağa heç vaxt xor baxmayacaqsan. İnanıram ki, mənim Anam kimi, mənə kömək etmək istəyirsən və sənin Oğlun Rəbbim İsa Məsihə mənim üçün xahiş edə bilərsən. İnanıram ki, sevimli Anam olaraq məni əbədi bir sevgi ilə sevirsən. Təşəkkür edirəm, əziz Anam.

Məryəm, düyünləri açan,
mənim üçün dua et! Lütf axtaran biri
onu Məryəmin əlində tapacaq.

# 2  İkinci gün

Məryəm, hamımıza lütflər gətirən sevimli Ana, bu gün köməyinə ehtiyacı olan bir günahkar olduğumu etiraf edərək ürəyimi sənə verirəm. Eqoizm, qürur və qəzəbin olması, səxavət və təvazökarlığın olmaması günahına görə dəfələrlə lütflərini itirmişəm.

Mən bu gün sənə üz tuturam, düyünləri açan Məryəm, Oğlun İsadan mənə azad, təvazökar və güvənən bir ürək verməsini xahiş et. Bu gün mən bu fəzilətləri yerinə yetirərək yaşayacağam və sənə sevgi əlaməti olaraq bunu təqdim edirəm.

Mənə Allahın izzətini əks etdirməyə mane olan bu düyünü əllərinə tapşırıram.

Məryəm, düyünləri açan,
mənim üçün dua et!
Məryəm günün bütün anlarını
Allaha qurban verdi!



# 3 Üçüncü gün

Ana və şəfaətçi, sənin əlində Padşahın xəzinələrini tapırıq, bu gün mərhəmətli gözlərini mənə tərəf çevir. Həyatımdakı bu düyünü ... və mənə gətirdiyi bütün qəzəb və acı ilə birlikdə sənin müqəddəs əllərinə tapşırıram. Səmavi Ata, Səndən günahımı bağışlamağını xahiş edirəm. Mənə bilərəkdən və ya bilməyərəkdən bu düyünə səbəb olan bütün insanları bağışlamağa kömək et, çünki sən onu aça biləcək gözəl yolsan. Əziz Anam, mən də bağışlanmağı qəbul etdiyim üçün indi mən də sənin önündə və bu qədər təhqirlərə məruz qalmış Xilaskarım, Oğlun İsa Məsihin adı ilə bu insanları ... və özümü əbədi olaraq bağışlayıram. Düyünləri açan Məryəm, ürəyimdəki qəzəb düyününü və bu gün sənə təqdim etdiyim düyünü açdığın üçün təşəkkür edirəm. Amin.

Məryəm, düyünləri açan,
mənim üçün dua et! Ey lütf həsrəti
çəkənlər, Məryəmə üz tutun!



# 4 Dördüncü gün

Əziz müqəddəs Anam,
səni axtaranların hamısına səxavətlisən,
mənə rəhm et. Ürəyim rahatlığımı əlindən
alan, ruhumu iflic edən, Rəbbin hüzuruna
gəlməyimə və həyatımla Ona xidmət
etməyimə mane olan bu düyünü
sənin əlinə tapşırır.
Həyatımdakı bu düyünü aç
...
Ey Anam, Rəbbimdən xahiş et ki,
həyat yolumdakı daşlara görə həvəsdən
düşən imanıma şəfa versin.
Səninlə, əziz Anam, mən bu daşları daha
asan qəbul edə bilərəm. Onlara görə
ağlamaq yox, əksinə, Rəbbə sonsuz
təşəkkür etməyimə kömək et.
Məryəm, düyünləri açan,
mənim üçün dua et!
Məryəm günəşdir və onun sığınacağını
axtarana istilik verilir!



# 5 Beşinci gün

Səxavətli və mərhəmətli Məryəm,
düyünləri açan, mən bu gün yanına
gəlirəm ki, həyatımdakı bu düyünü sənə
bir daha əmanət edim… Bu problem
dolaşıqlığını Müqəddəs Ruhun işığında
açmaq üçün Allahdan müdriklik diləyirəm.
Heç kim səni qəzəbli görmədi, əksinə,
sözlərin o qədər şirin idi ki, dodaqlarında
Müqəddəs Ruhun ənamları göründü.
Bu düyünün mənə səbəb olduğu acılığı,
qəzəbi və nifrəti məndən uzaqlaşdır.
Əziz Anam, ürəyində səssizcə əks olunan
şirinlik və hikmətdən bir az da mənə ver.
Pentekost bayramında İsadan Müqəddəs
Ruhun indi mənə yeni bir hüzurunun
göndərməsini xahiş edin.
Müqəddəs Ruh, gəl və məndə yaşa.
Məryəm, düyünləri açan,
mənim üçün dua et!
Məryəm Allah yanında güclüdür!

# 6 Altıncı gün



Mərhəmətli Kraliça, həyatımdakı
bu düyünü sənə əmanət edirəm ....
Xahiş edirəm, mənə səbirli bir ürək ver ki,
onu açmağı gözləyim.
Mənə İsanın canlı sözündə qalmağı öyrət,
mənə Evxaristiyadan,
və Tövbə sirrindən güc almağı öyrət,
mənimlə qal
və ürəyimi mələklərlə birlikdə
mənə veriləcək lütfü
qeyd edəcəyim an üçün hazırla.
Amin.
Halleluya!
Məryəm, düyünləri açan,
mənim üçün dua et!
Sən gözəlsən, Məryəm,
sənin üzərində
heç bir günah ləkəsi yoxdur!

# 7 Yeddinci gün



Ən saf Ana, bu gün sənin yanına gəlib
həyatımdakı bu düyünü açmağı
xahiş edirəm...
Yalvarıram, məni şeytanın tələlərindən
qurtar. Allah sənə bütün cinlər üzərində
böyük güc verib. Bu gün mən onların
hamısından imtina edirəm,
onlarla ünsiyyətdən imtina edirəm
və İsanı, yeganə Rəbbim və Xilaskarım
elan edirəm. Düyünləri açan Məryəm,
şər olanın başını əz və bu düyünlə
mənim üçün qurduğu tələləri məhv et.
Təşəkkür edirəm, əziz Anam.
Məsihin qiymətli qanı, məni azad et!
Məryəm, düyünləri açan,
mənim üçün dua et!
Sən Yerusəlimin izzətisən,
Xalqımızın sevincisən!



# 8 Səkkizinci gün

Lütflərlə dolu olan Allahın Bakirə Anası, övladına rəhm et və həyatımdakı bu düyünü aç…
Elizaveti ziyarət etdiyin kimi, mənə baş çəkməyin lazımdır.
Mənə İsanı gətir, mənə Müqəddəs Ruhu gətir. Mənə fəzilətləri öyrət: cəsarət, sevinc, təvazökarlıq və imanı.
Kömək et ki, Elizavet kimi, ürəyimdə Müqəddəs Ruh olsun. İcazə ver, ürəyin üstündə sevinclə dincəlim.
Mən səni anam, kraliçam və dostum seçirəm. Ürəyimi və sahib olduğum hər şeyi (ev və ailəmi, maddi və mənəvi nemətlərimi) sənə verirəm.
Mən əbədi səninəm. Ürəyini mənim qəlbimə qoy ki, İsanın mənə dediyi hər şeyi edə bilim. Məryəm, düyünləri açan, mənim üçün dua et!
İnamla dolu gedək lütf taxtına!

# 9 Doqquzuncu gün



Müqəddəs Ana, şəfaətçimiz,
düyünləri açan,
mən bu gün sənin yanına gəlirəm ki,
həyatımda bu düyünü açdığın üçün
təşəkkür edim...
Onun mənə nə qədər əziyyət verdiyini
yaxşı bilirsən. Lütf barmaqlarınla
gözlərimdən axan yaşları qurutmağa
gəldiyin üçün sənə minnətdaram.
Məni qucağında qəbul et və yenidən
Allahın lütfünə çatmağa kömək et.
Məryəm, düyünləri açan, əziz Anam,
həyatımdakı düyünləri açdığın üçün
təşəkkür edirəm. Məni məhəbbət libasına
bürü, himayən altında olum,
mənə rahatlıq ver!
Amin.
Məryəm, düyünləri açan,
mənim üçün dua et!

## Peşmanlıq duası

Ey Allahım, Sənə qarşı günah etdiyim
üçün ürəkdən peşmanam. Sənin ədalətli
hökmləndirmən səbəbilə,
amma ən çox da Səni, tamamilə yaxşı olan
və bütün sevgimi qazanan Allahımı
məmnun etmədikləri üçün
bütün günahlarımdan iyrənirəm.
Mən qəti qərara gəlirəm ki, bir daha
günah iş görməyim və günahdan qaçım.
Amin.



# VII Müqəddəslərin duaları



Sıxıntı içində Rəbbi çağırdım,
Cavab verib məni genişliyə çıxartdı.
*(Zəbur 118:5)*

**Əziz İsa**, ətirlərini getdiyim hər yerə yaymağımda mənə kömək et. Qəlbimi Öz Ruhunla və həyatınla doldur. Bütün varlığıma nüfuz edib sahib ol ki, mənim həyatım Sənin əksin olsun. Mənim vasitəmlə parla və məndə ol ki, görüşdüyüm hər bir qəlb, Sənin varlığını mənim qəlbimdə hiss etsin. Yanıma gələnlərin hamısı üçün nur ol və məndə yaşa və beləcə qoy onlar baxaraq artıq məni yox, yalnız Səni görsünlər, həmişə mənimlə qal və o zaman mən, Sən parladığın kimi parlamağa başlayacağam. Bütün bu işıq Sənin olacaq, mənim vasitəmlə başqalarına işıq saçan Sən olacaqsan, qoy Səni elə izzətləndirim ki, necə bunu Sən istəyirsən, bizim vasitəmizilə başqalarına işıq saçaraq. Qoy mən Sənin haqda sözlərimlər deyil, öz nümunəm ilə, cəzbedici qüvvə ilə, əməllərimin təsiri ilə və Sənə olan dolğun məhəbbətimin şahidçiliyi ilə vəz edim. Amin.

*(Müqəddəs kardinal Nyuman)*

†

## Sülh üçün dua

Rəbbim, məni Öz sülhünün aləti et.
Nifrət olan yerdə qoy sevgi,
Ədalətsizlik olan yerdə əfvi,
İnciklik olan yerdə bağışlama,
Yalan olan yerdə həqiqəti,
Ümidsizlik olan yerdə ümidi,
Qaranlıq olan yerdə nuru,
Kədər olan yerdə sevinci əkim.
Ey İlahi Ağam, mənə kömək et ki,
təsəlli almaqdansa
daha çox təsəlli verə bilim,
başa düşülməkdənsə, başa düşüm,
sevilməkdənsə, sevim.
Çünki biz verərkən əldə edirik,
Bağışlayarkən bağışlanırıq,
Ölərkən əbədi həyat üçün doğuluruq.
*(Müqəddəs Assisili Fransisk)*

†

Ey Müqəddəs Ruh, məndə nəfəs al ki,
düşüncələrim hamısı müqəddəs olsun.
Ey Müqəddəs Ruh,
daxilimdə hərəkət et ki,
işlərim də müqəddəs olsun.
Ey Müqəddəs Ruh, qəlbimi çək ki,
müqəddəs olanı sevim.
Ey Müqəddəs Ruh, müqəddəs olanların
hamısını müdafiə etmək üçün
məni gücləndir.
*(Müqəddəs Avqustin)*

†

Ya Rəbb, Allahım,
mənə Səni tanımaq üçün bir ağıl,
Səni axtaracaq bir ürək,
Səni tapmaq üçün hikmət,
Sənə xoş gələcək davranışlar,
Səni gözləyəcək sadiq əzm
və nəhayət, Səni qucaqlamaq ümidi
nəsib et! Amin.
*(Müqəddəs Aquinalı Tomas)*

†

Ata, mən özümü
Sənin əllərinə buraxıram;
Etmək istədiyini mənimlə et.
Etdiyin hər şeyə görə
Sənə təşəkkür edirəm:
Hər şeyə hazıram
və hamısını qəbul edirəm.
Qoy yalnız Sənin iradən məndə
və yaratdığın bütün varlıqlarında
yerinə yetsin.
Ya Rəbb, bundan artıq bir şey istəmirəm,
Sənin əllərinə öz ruhumu təslim edirəm;
Bunu ürəyimdəki bütün sevgi ilə
Sənə təqdim edirəm,
Səni sevirəm, ya Rəbb,
və buna görə özümü Sənə verirəm,
hüdudsuz güvən ilə
əllərində təslim oluram,
çünki Sən mənim Atamsan.

*(Müqəddəs Charles de Foucauld)*
*[Şarl de Fuko]*

Rəbb İsa Məsih, göydə və yerdə nə varsa,
hamısı Sənə məxsusdur.
Özümü tamamilə Sənə həsr etmək
və həmişəlik Sənin olmaq istəyirəm.
Bu gün özümü Sənə ürəyimlə təqdim
edirəm ki, hər zaman Sənə xidmət edib
itaətli olum və dayanmadan həmd
və şükranlıq qurbanını Sənə təqdim edim.
Amin.

*(Thomas à Kempis)*
*(Foma Hemerken Kempiyskiy)*

†

Nə bəxtiyardır sevən və buna görə
sevilməyi istəməyən insan;
nə bəxtiyardır Allahdan qorxan
və başqa heç nədən qorxmayan insan
Nə bəxtiyardır xidmət edən
və ona xidmət edilməsini istəməyən insan;
Nə bəxtiyardır başqalarına yaxşı davranan
və başqalarının ona qarşı yaxşı
davranmalarını istəməyən insan.
Bunlar böyük dəyər olduğundan,
ağılsızlar onlara çatmazlar.

*(Müqəddəs Loyolalı Ignatius)*

Ey Məsih İsa, hər şey qaranlıq olduqda
öz zəifliyimizi
və çarəsizliyimizi hiss edirik,
bizə varlığını, sevgini və gücünü bildir.
Sənin qoruyucu sevgində və gücündə
mükəmməl güvən hiss etməyimizə
kömək et ki, heç nə bizi qorxutmasın
və ya narahat etməsin.
Qoy Sənin yanında yaşayaraq
hər şey vasitəsilə əlini, məqsədini
və iradəni görək. Amin.
*(Müqəddəs Loyolalı Ignatius)*

†

Rəbb, bu axşam oyanan və ya ağlayanlarla
birlikdə ol. Yatanlar üçün mələklərə
və müqəddəslərə tapşırıq ver. Ey Rəbb İsa
Məsih, xəstələrin qayğısına qal,
yorğunlara istirahət ver, ölənlərə xeyir-dua
ver, əzab çəkənlərə sakitlik ver, bütün
əziyyət içində olanlara mərhəmət et,
sevincli insanları qoru və bunların
hamısını sevgin naminə et.
*(Müqəddəs Avqustin)*

†

Rəbb, əbədi Məhəbbət Olan,
Mərhəməti sonsuz Olan, Üç Üqnum Olan,
Müqəddəs və Tək Allahım.
Sənin şəfqətli qolların hər quluna açıqdır.
Abba, Atamız, Sən insanlar arasında
tərəfkeşlik etməzsən.
Ey Allahın Məhəbbəti,
Sən canlı Qaynaq, gəl,
Üzərimizə en, gəl,
Sənə layiq olmayan qullarının üzərinə en.
Günahkar vazıyyətimiz
Sənin Məhəbbətinin önünü kəsə bilməz,
çünki Sənin Məhəbbətin
və Mərhəmətin sonsuzdur.
Amin.

*(Müqəddəs Faustina)*

†

Ya Rəbb, gözlərimizi aç ki,
Səni bacı və qardaşlarımızda görək.
Ya Rəbb, qulaqlarımızı aç ki, ac, soyuq,
qorxu içində olan məzlumların fəryadını
eşidək. Ya Rəbb, qəlblərimizi aç ki,
bizi sevdiyin kimi
biz də bir-birimizi sevək.
Biz də Öz ruhunu yenilə.
Rəbb, bizi azad et və bizi bir et.
Amin.

†

Bizi yaradan Ata bizə xeyir-dua versin.
Allah Oğul Öz şəfasını aramıza göndərsin.
Allahın Müqəddəs Ruhu içimizdə
hərəkət etsin və görməyə gözlər,
eşitmək üçün qulaqlar,
işlərini edə biləcək əllər versin.
Qoy gedib Allahın sözünü
hamıya təbliğ edək. Sülh mələyi bizi
qorusun və Allahın lütfü ilə bizi Səmavi
Padışahlığa aparsın.

*(Müqəddəs Dominik)*

†

Mərhəmətli və Müqəddəs Ata,
Səni anlamaq üçün bizə ağıl,
Səni ayırd etməyə səbəb, Səni axtarmaq
üçün səy, Səni tapmaq üçün hikmət,
Səni tanımaq üçün bir ruh,
Sənin üzərində düşünmək üçün
bir ürək bəxş et.
Qoy qulaqlarımız Səni eşitsin,
gözlərimiz Səni görsün
və dillərimiz Səni bəyan etsin.
Həyat tərzimizin Sənə xoş gəlməsi üçün
bizə lütf ver, Səni gözləmək üçün
səbir və Səni axtarmaq əzmini ver.
Bizə mükəmməl bir sonu – Müqəddəs
Həyatını, mübarək bir dirilmə və əbədi
həyatı nəsib et. Bunu Rəbbimiz İsa Məsih
vasitəsilə Səndən diləyirik.
Amin.

†

Rəbbim, mən ac olanda,
yeməyə ehtiyacı olan birini mənə göndər. Mən kədərli olanda təsəlli verə biləcəyim birisini mənə ver; çarmıxım ağırlaşmağa başladıqda, başqasının çarmıxına kömək edim. Vaxtım olmadığı müddətdə kömək edə biləcəyim birini mənə ver; Qürurum sındığı zaman qoy başqasını tərifləyim; cəsarətim sındığı zaman, cəsarətləndirə biləcəyim birini göndər; başqaları tərəfindən başa düşülmək istəyəndə, mənə ehtiyacı olan birini mənə ver; kiminsə mənə qayğı göstərməsi lazım olduqda, mənə qayğı göstərmək üçün birini göndər; mən yalnız özüm haqqında düşünməyə başlayanda, diqqətimi digər insanlara yönəlt. Məni layiq et ki, dünyada yaşayan və aclıqdan və yoxsulluqdan əziyyət çəkən qardaşlarıma xidmət edim. Əllərimdən istifadə edərək gündəlik çörəylərini onlara ver və sevgimlə onlara anlayış, sülh və xoşbəxtlik bəxş et. Amin.

*(Müqəddəs Kolkatalı Tereza ana)*

†

Rəbbim,
ehtiyacı olanlara, yoxsullara
və xəstələrə kömək etməklə
bu günü keçirtmək üçün
mənim əllərimi istəyirsənmi?
Rəbbim, bu gün əllərimi Sənə verirəm.
Rəbbim, bir dosta ehtiyacı olanları,
ziyarət edərək bu günü keçirtmək üçün
ayaqlarımı istəyirsənmi?
Rəbbim, bu gün ayaqlarımı Sənə verirəm.
Səsimin sevgi sözlərinə ehtiyacı olanlarla
danışmaqla bu günü keçirməsi üçün
Səsimi istəyirsənmi?
Rəbbim, bu gün səsimi Sənə verirəm.
Rəbbim, hər bir insanı,
olduqları kimi sevərək
bu günü keçirmək üçün
ürəyimi istəyirsənmi?
Rəbbim,
bu gün Sənə ürəyimi verirəm.

*(Müqəddəs Kolkatalı Tereza ana)*

**Rəbb İsa, icazə ver,** özümü tanıyım və Səni tanıyım və Səndən başqa heç bir şey üçün səy göstərməyim. İcazə ver, özümdən üz döndərim və Səni sevim və beləcə hər şeyi Sənin üçün edim. İcazə ver, özümü müti edim və Səni ucaldım, beləcə başqa heç bir şey düşünməyim, yalnız Səni düşünüm. İcazə ver, özümü alçaldım amma Səndə cana gəlim və baş verənlərin hamısını Sənin iradən kimi qəbul edim. İcazə ver, özümdən uzaqlaşıb Sənə tabe olum və həmişə Sənin yanına getməyə susayım. İcazə ver, özümdən qaçım və Sənə tərəf tələsim ki, Sənin müdafiənə layiq olum. İcazə ver, özümdən dəhşətə gəlim və Səndən qorxum, beləcə seçilmişlərinin arasında olum. İcazə ver, özümə etibar etməyim, amma Sənə güvənim və beləcə Sənə itaətli olum. Qoy ürəyim Səndən başqa heç nə istəməsin və mən Sənin naminə kasıb kimi olum. Mənə bax və Səni sevəcəyəm. Məni çağır Səni görəcəyəm və həmişəlik Səndə sevinəcəyəm. Amin.

*(Müqəddəs Avqustin)*

Rəbbim və Tanrım,
Sənin yanına gəlməyimə mane olan
hər şeyi məndən al.

Rəbbim və Tanrım,
Məni Sənə yaxınlaşdıran hər şeyi
mənə ver.

Rəbbim və Tanrım,
məni məndən al
və tamamilə özünə həsr et.
*(Müqəddəs Flüeli Nikolaus)*

Ya Rəbb,
hər şeyi Öz Hikmətin ilə idarə et ki,
qəlbim hər zaman öz seçiminə görə yox,
Sənin iradənə uyğun olaraq Sənə xidmət
etsin. Qoy mən özüm üçün ölüm ki,
Sənin qulluğunda dura bilim. Qoy Sənin
üçün yaşayım, çünki Sən həyatın özüsən.
*(Müqəddəs Aviliyalı Tereza)*

# Rəbb Allahın tərənnümləri

Möcüzələr yaradan Tanrım,
yalnız Sən Müqəddəssən.
Sən güclüsən, Sən böyüksən,
Sən izzətlisən. Sən hər şeyə qadirsən.
Sən yerin və göyün padşahı,
Müqəddəs Atamsan. Tanrım,
Sən yaxşılıqsan. Sən bütöv yaxşılıqsan.
Həqiqi və canlı Tanrım,
Sən ən üstün yaxşılıqsan, sevgisən,
Sən məhəbbətsən, Sən biliksən,
Sən təvazökarlıqsan, Sən səbirsən,
Sən rahatlıqsan, Sən müdafiəsən.
Sən sevinc və ürəklərin həzzisən,
Sən doğruluq və ahəngsən,
Sən şirinlərdən şirinsən.
Sən sığınacağımızsan,
Sən qoruyucumuz və gözətçimizsən.
Sən qüvvətsən, Sən genişliksən.
Sən ümidimizsən,
Sən ən böyük mehribanlığımızsan.
Heyranlıq duyduğumuz böyük Rəbb,
hər şeyə qadir Tanrı,
mərhəmətli mehriban Xilaskar,
Sən əbədi həyatımızsan.

*(Müqəddəs Assisili Fransisk)*

†

**Yalnız Tanrı**
ümid verə bilər,
amma sən dostlarına güvən verə bilərsən.
Yalnız Tanrı sevgi verə bilər,
amma sən başqalarına sevgini öyrədə
bilərsən. Yalnız Tanrı bağışlama verə bilər,
amma sən birlik yarada bilərsən.
Yalnız Tanrı güc verə bilər,
amma sən cəsarəti qırılana dəstək
verə bilərsən. Yalnız Tanrı yoldur,
amma sən bu yolu başqalarına göstərə
bilərsən. Yalnız Tanrı işıqdır,
amma sən hamının gözündə
bu işığı parlada bilərsən.
Yalnız Tanrı həyatdır,
amma sən başqaların həyatına dad
verə bilərsən. Yalnız Tanrı mümkün
olmayanı gerçək edə bilər,
amma sən mümkün olanları edə bilərsən.
Yalnız Tanrı Özünə kifayətdir,
amma istəsə, sənə güvənə bilər.

## Ya Rəbb, mənimlə qal

Ya Rəbb, mənimlə qal ki,
Səni unutmayım. Sən bilirsən, Səni necə asanlıqla tərk edirəm. Ya Rəbb, mənimlə qal, çünki mən zəifəm, bu qədər tez düşməməyim üçün Sənin gücünə ehtiyacım var. Ya Rəbb, mənimlə qal, çünki Sən mənim nurumsan, Sənsiz mən qaranlıqdayam. Ya Rəbb, mənimlə qal ki, iradəni anlaya bilim. Ya Rəbb, mənimlə qal ki, Səsini eşidim və Sənə tabe olum. Ya Rəbb, mənimlə qal, çünki Səni sevmək istəyirəm və həmişə Səninlə olmaq istəyirəm. Ya Rəbb, Sənə sadiq qalmağımı istəyirsənsə, mənimlə qal. Ya Rəbb, mənimlə qal, çünki ruhum yoxsuldur, İstəyirəm ki, Sənin üçün təsəlli yeri və bir sevgi yuvası olum. İsa, yanımda qal, çünki gec olur, gün yaxınlaşır və həyat keçir; ölüm, hökm, əbədiyyət yaxınlaşır. Gücümü yeniləmək lazımdır, bu yolda tək qalmamağım üçün Sənə ehtiyacım var.

**Gec olur** və ölüm yaxınlaşır, qaranlıqdan, sınaqlardan, quruluqdan, xaçdan, kədərlərdən qorxuram. Bu sürgün gecəsində Sənə necə ehtiyacım var, İsa! İsa, bu təhlükə dolu həyatda bu axşam mənimlə qal, mənim Sənə ehtiyacım var. İcazə ver, çörək bölündüyü zaman şagirdlərin kimi Səni tanıyım, belə ki, Evxaristiya Birliyi qaranlığa yayılan işıq, məni dəstəkləyən qüvvə və qəlbimin misilsiz sevinci olsun. Ya Rəbb, yanımda qal, çünki ölüm saatımda Səninlə bir olmaq istəyirəm, ünsiyyət yolu ilə olmasa da, ən azı lütf və sevgi ilə. Rəbb, yanımda qal, Sənin sevgini, lütfünü, iradəni, ürəyini, Ruhunu və Səni, yalnız Səni axtarıram, çünki Səni sevirəm və Səndən daha çox sevməkdən başqa mükafat istəmirəm. Möhkəm bir sevgi ilə, yer üzündə olarkən bütün qəlbimlə Səni sevəcəyəm və sonsuzadək Səni mükəmməl sevməyə davam edəcəyəm. Amin.

*(Müqəddəs Padre Pio)*

♥ † ♥

**Səni sevirəm**, Rəbbim! Ömrümün son nəfəsinə qədər Səni sevməyə həsrət qalacağam. **Səni sevirəm**, mərhəməti sonsuz olan Allahım. Səni bir an sevmədən yaşamaqdansa, Sənə aşiq olaraq ölməyi üstün tuturam. **Səni sevirəm**, Allahım, cənnətin elə həsrətindəyəm ki, orada Səni mükəmməl sevəcəyəm. **Səni sevirəm**, Allahım, cəhənnəmdən ona görə qorxuram ki, orada Səni sevməyin heç bir şirin təsəllisi yoxdur. Tanrım, dilim hər zaman "**Səni sevirəm**" deyə bilməsə belə, ürəyimin hər döyüntüsü ilə bunu Sənə təkrar etməsini arzu edirəm. Sənə aşiq olanda əziyyət çəkmək, əzab içində Səni sevmək və bir gün Məhəbbətini hiss edərkən Sənə olan Sevgidən canımı tapşırmaq üçün mənə lütf ver.
Sonuma nə qədər yaxınlaşsam,
bir o qədər çox yalvarıram ki,
sevgimi çoxaldıb incələyərsən. Amin.

*(Müqəddəs Jean Maria Vianney)*

†

# İsa Məsihin yaralarına dua

*(Müqəddəs Rafqa imanlıları İsa Məsihin Yaralarına dua etməyə çağırırdı. İsanın bədənində olan hər yara üçün 2 dua edilməlidir.)*



**† Ey göylərdə olan Atamız...**
**† Salam, Mübarək Məryəm...**

*Dua deyildikdə diqqətinizi o nöqtəyə cəmləyin.*

Rəbb İsanın...

1 - sol əlində mismarın açdığı yara
2 - sağ əlində mismarın açdığı yara
3 - sol ayağında mismarın açdığı yara
4 - sağ ayağında mismarın açdığı yara
5 - böyründə nizənin açdığı yara
6 - çarmıxın çiynində qoyduğu zədə

# İsa Məsihin Müqəddəs Ürəyinə həsr etməsi

Mən özümü, şəxsimi və həyatımı, əməllərimi, ağrılarımı və əzablarımı Rəbbimiz İsa Məsihin Müqəddəs Ürəyinə verirəm və həsr edirəm. Beləliklə, mən varlığımın heç bir hissəsindən müqəddəs qəlbi izzətləndirmək, sevmək və ucaltmaqdan başqa istifadə etməyəcəyəm.

Bu dediklərim, yəni tamamilə Onun olmaq və hər şeyi Onun rizası üçün etmək yeganə məqsədimdir. Eyni zamanda, mən Onun xoşuna gəlməyən hər şeyi ürəkdən rədd edirəm.

Ey Müqəddəs Ürək, beləliklə,
Səni sevgimin yeganə obyekti, həyatımın qoruyucusu, xilasımın zəmanəti, zəifliyimin və qərarsızlığımın şəfası, həyatımdakı bütün səvhlərimin kəffarəsi və ölüm saatımda etibarlı sığınacaq kimi qəbul edirəm.

Ey yaxşılığın Ürəyi, onda Ata Allahın qarşısında mənim müdafiəm ol və məni Onun ədalətli qəzəbinin zərbələrindən qoru.

Ey məhəbbətin qəlbi, bütün güvənim Sənədi, çünki mən öz pisliyimdən və zəifliyimdən qorxuram, amma Sənin xeyirxahlığından və xəzinəndən gələcək hər şeyə ümid edirəm.

Müqəddəs iradənə müqavimət göstərəcək və ya xoşuna gəlməyəcək hər şeyi məndən al, qoy saf sevgin görüntünü qəlbimin dərinliklərinə həkk etsin ki, Səni heç vaxt unutmayım və Səndən ayrılmayım.

Sevgi dolu xeyirxahlığından adımın Qəlbinə yazılması lütfünü alım, çünki Səni izzətləndirmək və xoşbəxtliyimi Sənə təqdim etmək, həyatda və ölümdə həmişə Sənə bağlı olmaq istəyirəm. Amin.

*(Müqəddəs Marqaret Meri Alakok)*

†

# Ruhani Birləşmə

*(Müqəddəs Messada iştirak edə bilməyəndə)*

Mənim İsam,
iman edirəm ki,
xeyir-dualı Sirrin içində Sən Özünsən.
Sənə səcdə qılıram,
Səni hər şeydən çox sevirəm.

Sənə olan sevgimə görə bütün
günahlarımdan tövbə edirəm
və söz verirəm ki,
hər bir günah fürsətindən qaçacam.

Ruhum Sənin həsrətini çəkir,
hal-hazırda Səni müqəddəs messada
qəbul edə bilməsəm də,
ruhani olaraq Sən qəlbimə gəl.
Mən Səni bağrıma basıram,
sanki Sən orada idin
və tamamilə özümü Sənə bağlayıram.
Qoyma, heç vaxt Səndən ayrı qalım.
Amin.

*(Müqəddəs Alfons Liguori)*

†

Müqəddəs Xaç məni nurlandırsın,
Qədim ilanın pisliyi məhv olsun,
Şeytan məndən uzaq qaçsın,
Fani olan şeylər məndən kənar olsun,
Pis olan məni yoldan çıxartmasın,
Zəhər kasasından özü dadsın. Amin.

*(Müqəddəs Benedikt)*

†

## Litaniae Sanctorum

*Bütün müqəddəslərə yalvarışlar*

Ya Rəbb, bizə rəhm et!
İsa Məsih, bizə rəhm et!
Ya Rəbb, bizə rəhm et!
Ey Məsih, dinlə bizi! * Ey Məsih, eşit bizi!

Tanrı – Səmavi Ata
Tanrı – Oğul, dünyanın Xilaskarı
Tanrı – Müqəddəs Ruh
Müqəddəs Üçlük, tək Tanrı

***bizə rəhm et!***

Məryəm, Allah Anası, bizim üçün dua et!
Mikael, bizim üçün dua et!
Allahın mələkləri, bizim üçün dua edin!
Vəftizçi Yəhya, bizim üçün dua et!
Yusif, bizim üçün dua et!
Peter və Pavel, bizim üçün dua edin!
Andrey, bizim üçün dua et!
Yəhya, bizim üçün dua et!
Bartalmay, bizim üçün dua et!
Məsihin şagirdləri, bizim üçün dua edin!
Məryəm Məcdəlli, bizim üçün dua et!
Stefan, bizim üçün dua et!
İgnatius, bizim üçün dua et!
Luçia, bizim üçün dua et!
Avqustin, bizim üçün dua et!
Bazil, bizim üçün dua et!
Fransisk və Dominik,bizim üçün dua edin!
Klara, bizim üçün dua et!
Don Bosko, bizim üçün dua et!
Maria Dominika, bizim üçün dua et!
Dominik və Laura, bizim üçün dua edin!
Bütün müqəddəslər, bizim üçün dua edin!

Rəbb, mərhəmətli ol! *2 dəfə*

Hər pislikdən * bizi xilas et!
Hər günahdan * bizi xilas et!
Əbədi ölümdən * bizi xilas et!
Sənin təcəssümünə görə * bizi xilas et!
Sənin ölümünə və dirilişinə görə
* bizi xilas et!
Müqəddəs Ruhu verdiyinə görə
* bizi xilas et!
Bizə, günahkarlara rəhm et
* eşit bizi, ya Rəbb!
Öz seçdiyin övladına yeni həyat ver
* eşit bizi, ya Rəbb!
İsa Məsih, Allahın Oğlu
* eşit bizi, ya Rəbb!

Rəbb, bizim dualarımızı eşit!
* Rəbb, bizim dualarımızı eşit!

# Müqəddəs Yusifin Litaniyası

†

Ya Rəbb, bizə rəhm et!
İsa Məsih, bizə rəhm et!
Ya Rəbb, bizə rəhm et!
Ey Məsih, dinlə bizi! * Ey Məsih, eşit bizi!

Tanrı – Səmavi Ata
Tanrı – Oğul, dünyanın Xilaskarı
Tanrı – Müqəddəs Ruh
Müqəddəs Üçlük, tək Tanrı

***bizə rəhm et!***

Müqəddəs Məryəm,
Müqəddəs Yusif,
Davudun şöhrətli nəsli,
Patriarxların işığı,
Allah Anasının nişanlısı,
Bakirə Məryəmin ismətli qoruyucusu,
Allahın Oğlunun qəyyumu,
Məsihin qayğıkeş gözətçisi,
Müqəddəs Ailənin başçısı,
Yusif, ən ədalətli,
Yusif, ən iffətli,
Yusif, ən hikmətli,

***bizim üçün dua et!***

Yusif, ən güclü,
Yusif, ən itaətkar,
Yusif, ən sadiq,
Səbrin aynası,
Yoxsulluğu sevən,
Sənətkarların nümunəsi,
Ev həyatının şöhrəti,
Bakirələrin qəyyumu,
Ailələrin sütunu,
Kədərlilərin təsəllisi,
Xəstələrin ümidi,
Ölənlərin havadarı,
Şər ruhları vahimələndirən,
Müqəddəs Kilsənin Havadarı,

***bizim üçün dua et!***

Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizə rəhm et!
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizi dinlə!
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizə mərhəmət et!

**Rəbb Onu evinin ağası etdi ***
**və bütün varlığının hökmdarı**
**təyin etdi.**

**Mübarək Yusif**, kədərlərimizdə sənə müraciət edirik və nişanlın Müqəddəs Bakirə Məryəmdən kömək çağıraraq, bizi qorumağınıza ümid edirik.
Sənə Müqəddəs Bakirə Məryəmlə birləşdirən məhəbbət üçün və Körpə İsaya olan Ata məhəbbətin üçün dua edirik:
İsa Məsihin Qanının müqabilində qazandığı mirasa lütfkarlıqla bax və ey qüdrətli havadarımız, ehtiyaclarımızda bizə kömək et. Müqəddəs Ailənin müdrik qoruyucusu, Məsihin seçilmiş insanlarını qoru. Sevən ata, qaranlıq qüvvələrə qarşı apardığımız mübarizədə
bizi bütün təhlükələrdən, nöqsanlardan və məğlubiyyətlərdən qurtar. Bir vaxtlar Körpə İsanı ölümcül təhlükədən qurtardığın kimi, indi də Müqəddəs Kilsəni düşmənin hiyləgərliyindən və bütün bəlalardan qoru. Etibarlı örtüyünü hər birimizin üzərinə uzat ki, Sənin nümunənə və köməyinə görə mömin bir həyat sürək, sülh yolu ilə tamamlayaq və cənnətdə əbədi səadətə nail ola bilək.
**Amin.**

# VIII Mələklər



Allah sənə görə mələklərinə əmr edər ki,
Gedəcəyin hər yerdə səni qorusunlar.
*(Zəbur 91:11)*

## Müqəddəs mələk Mikael

Müqəddəs baş mələk Mikael,
iblisin hiylə və fitnəsinə qarşı olan savaşda
bizi qoru, bizim havadarımız ol.
Qoy Rəbb şeytana əmr etsin,
həlimliklə xahiş edirik,
Sən isə, səmavi orduların Şahzadəsi,
qəlbləri məhv etmək üçün dünyanı sərsəri
gəzib dolaşan şeytanı və digər pis ruhları,
Allahın gücü ilə cəhənnəmə göndər.
Amin.

## Qoruyucu mələyim

Ey məni qoruyan Allahın mələyi,
həmişə yanımda dayan,
səhər, axşam, gündüz, gecə
mənim köməyimə tələs,
hər şərdən məni qoru,
əbədi həyata çatdır.
Amin.

†

# Müqəddəs mələk Cəbrayıl

Yazılıb ki, "Allah sənə görə mələklərinə əmr edər ki, gedəcəyin hər yerdə səni qorusunlar, səni əlləri üstündə aparsınlar, ayağın bir daşa dəyməsin".
Hörmətli və əziz mələk Cəbrayıl, sözlərimi dinlə, yanımda ol, yaxşı məsləhət söylə ki, kar kimi həyatımı sürməyim. Tanrının həqiqəti ilə gözlərimi aç ki, kor kimi başqalarına baxmayım, onların ehtiyaclarına fikir verim, lal kimi olmayım və düz sözləri deyim.
Mələk Cəbrayıl, insanlara Tanrının sözlərini gətirdin, xahiş edirəm, mənə kömək et, Rəbbin həqiqi sözlərini eşidim, başa düşüm, ürəyimdə saxlayım və həyatımda yaşayım.
Məni yalanlardan qoru və həqiqətə apar.
Amin.

†

# Müqəddəs Mələk Rafael

Ey əziz şəfa gətirən Mələk Rafael,
Sənə yalvarıram, yanımda ol,
şəfa gətir, bədənim üçün, ruhum üçün.
Tanrıdan mənə şəfa gətir,
çünki gücüm azalıb
və ümidsizliyə düçar oluram.
İman edirəm və qəbul edirəm ki,
əsl şəfa tək Tanrıdır,
O, günahlardan təmizləyir,
O, həyat verir,
O, hər şeyə qadirdir.
Əziz Rafael, xahiş edirəm,
mənə kömək et ki,
Məsihin yaralarında şəfa tapım,
Rəbb lütfü ilə möcüzələr etsin,
bütün dünya Rəbb Allahı izzətləndirsin.
Amin.

†

# Qoruyucu mələyə yalvarışlar

Salam olsun sənə, Allahın qoruyucum
olması üçün təyin etdiyi mələk!
Salam olsun sənə, müqəddəs mələk,
bütün təhlükələrə qarşı qoruyucum!
Salam olsun sənə, müqəddəs mələk,
bütün dərdlərə qarşı qoruyucum!
Salam olsun sənə, müqəddəs mələk,
ən sadiq dostum!
Salam olsun sənə, müqəddəs mələk,
yol göstərənim!
Salam olsun sənə, müqəddəs mələk,
müəllimim!
Salam olsun sənə, müqəddəs mələk,
bütün etdiklərimin şahidi!
Salam olsun sənə, müqəddəs mələk,
bütün çətinliklərə qarşı köməkçim!
Salam olsun sənə, müqəddəs mələk,
şübhəyə qarşı məsləhətçim!
Salam olsun sənə, müqəddəs mələk,
ölüm saatında qalxanım!
Amin.

# IX Çarmıx yolu



Əgər bir kəs
Mənim ardımca gəlmək istəyirsə,
özündən imtina etsin
və çarmıxını götürüb ardımca gəlsin.
*(İsa Məsih - Mk 8:34)*



I

# † İsa ölümə məhkum edilir †

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.
Rəbb İsa, mən tez-tez başqalarını
mühakimə edirəm
və anlayan və ya sevən deyiləm.
Həyatımdakı insanları Ponti Pilatın gözləri
ilə deyil, Sənin gözlərinlə görməyimə
kömək et.
Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.



# II

**† İsa çarmıxı çiyninə alır †**

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.

Rəbb İsa, dünyanı satın almaq üçün
Çarmıxını qəbul etdin.
Həyat çətinliklərimdə,
mübarizələrimdə, məyusluqlarımda
və əzab içində olanda çarmıxımı
qucaqlamağımda mənə kömək et.
Yalnız öz zəifliyimi tanımaqla,
gücünü kəşf edə bilərəm.

Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.

# III



## † İsa Çarmıxın ağırlığından yıxılır †

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.

Rəbb İsa, bilirəm ki,
hər dəfə Sənin ardınca getməyə çalışanda
yenə də yıxılıram. Amma yenə də məni
canlandırmaq üçün hər zaman Sən varsan.
Hər zaman mənə göstərdiyin
məhəbbətinini qayğısına
güvənməyimə kömək et.

Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.



IV

## † İsa Anası ilə görüşür †

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.

Rəbb İsa, anan Məryəmin Sənə olan
sevgisi kədərini üstələdi. Buna görə də
tez-tez başqalarının vasitəsilə yanıma
gəlirsən və onların sevgisi mənə
yeni həyat verir.
Həyatımdakı insanlar vasitəsilə məni
nə qədər sevdiyini görməyimə kömək et.

Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.



# V

**† Kirenalı Şimon İsaya kömək edir †**

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.

Rəbb İsa, bəzən həyatımda başqalarının
ehtiyaclarına laqeyd qalıram, hətta
sevdiyim insanlara da laqeyd yanaşıram.
Mənə kömək et ki,
başqalarını sevməyimin Səni tapmağın
ən yaxşı yolu olduğunu görüm.

Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.



# VI

## † Müqəddəs Veronika İsa Məsihin üzünü silir †

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.

Rəbb İsa, bəzən başqalarına müraciət etməkdən qorxuram. Mən yaxşı hərəkət etməli olduğum zaman heç nə etmirəm; danışmaq lazım olan zaman heç nə demirəm. Mənə daha dərin və cəsarətli bir inam ver. Yanımda olduğuna inanmağım üçün mənə kömək et.

Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.



# VII

## † İsa Məsih ikinci dəfə yıxılır †

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.

Rəbb İsa, uğursuzluq və məyusluq bəzən
məni ümidsizliyə aparır.
Səndən və başqalarından imtina edərək
öz qürurumun və özümə yazıqlığımın
arxasında gizlənirəm. Mənə lazım olan
ümidi ver və bir də yenidən
başlamaqdan qorxmamağıma
kömək et.

Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.

# VIII



**† İsa Məsih**
**kədərli qadınlara təsəlli verir †**

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.

Rəbb İsa, başqalarına olan böyük
mərhəmətin məni hədsiz dərəcədə üstələdi.
Səni və Sənin sevdiyin yolu düşünəndə
özümü kiçik və xudbin hiss edirəm.
Sevgimi tökməyimə kömək et ki,
məni Öz Sevginlə doldurasan.

Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.

# IX



## † İsa Məsih üçüncü dəfə yıxılır †

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.
Rəbb İsa, uğursuz gücüm mənim
nə qədər aciz olduğumu göstərir.
Sənsiz mən heç nə edə bilmərəm. Gücünə
güvənməyimə, Sənə nə qədər ehtiyacım
olduğumu görməyimə kömək et.
Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.

# X



## † İsanın geyimləri çıxardılır †

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.

Rəbb İsa, Sənin bu qədər qəddarcasına
alçaldıldığını gördüyümdə, var-dövlətimə,
qazandığım uğurlara və yoluma
necə yapışdığımı dərk edirəm.
Həyatımda Sənə və başqalarına daha da
yaxınlaşmağıma mane olan şeyləri
tərk etməyimə kömək et.

Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.

XI



**† İsa Məsihi çarmıxa çəkirlər †**

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.

Rəbb İsa, Çarmıxa çəkildiyini görəndə
mənə olan böyük sevginə heç vaxt şübhə
edə bilmərəm. Çarmıxını mənə olan
sevginin ən böyük əlaməti olaraq
görməyimə kömək et.

Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.

# XII



## † İsa Çarmıxda ölür †

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.
Rəbb İsa, sınıq və cansız bədənin
məni dərin imana çağırır. Ölümü,
hətta çarmıxdakı ölümü seçdin.
Daşıdığım çarmıxlarımı, Səni sevməyin
yolları kimi görməyimə kömək et.
Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.

# XIII



**† İsa Çarmıxdan endirilib Anasına təslim edilir †**

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.

Rəbb İsa, bədəninin çarmıxdan
götürüldüyünü görərək, qoy öz həyatımı
qurban verməkdən qorxmayım.
Əhəmiyyətsiz, faydasız və çarəsiz olmağı
düşünəndə qorxuram. Həyatımı
Sənin əllərinə verməyimə kömək et.

Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.

# XIV



## † İsa məzara qoyulur †

Sənə ibadət edirik, İsa Məsih,
Sənə həmd edirik * Çünki Öz müqəddəs
Çarmıxınla dünyanı xilas etdin.

Rəbb İsa, məzarını möhürləyən böyük daşı
görəndə, özümü tək və tərk edilmiş
hiss edirəm. Həyatımda bəzən uzaq
görünsən də, mənə Sənin yaxınlığına
və sevən varlığına inanmağa kömək et.

Həlim və itaətli İsa *
Ürəyimizi Öz Ürəyinə bənzər yarat.

# ÇARMIX YOLUNUN HİSSƏLƏRİ HAQDA DÜŞÜNCƏLƏR



## I İsa ölümə məhkum edilir

Ey Rəbb,
Həmin gün xalq əmin idi ki,
o, Səni mühakimə edərkən, Sənə verilən hökm ilə daxilən razılaşarkən, Pilatın və baş kahinlərin əməllərinə dəstək olarkən haqq yolundadır. Əlbəttə, axı kollektiv həmrəylik insana təhlükəsizlik hissini yaşadır. Bütpərəstlər tərəfindən işğala məruz qalan seçilmiş xalq üçün

təhlükəsizlik hissindən başqa nə lazım idi? Axı Sən onlar üçün azadlıq gətirən padşah olmadın, dünyada onların həqiqətini bərqərar etmədin, düşmənlərini utandırmadın, onların qisasını almadın! O zaman qoy Səni çarmıxa çəksinlər, bizim hökmdarımız qeysər olsun, bəlkə, bu yol ilə biz təhqir olunma hissindən qurtulduq. Biz məhz belə düşünürük: Səni qəlbimizin padşahı olmaq hüququndan məhrum edəndə, dünyanın hökmdarlarına baş əyəndə, onlara birlikdə, biri-birimizi təqlid edərək baş əyəndə, çünki özümüzü çarmıxa çəkilmiş padşahın davamçılarına bənzər  yox, əksinə, özümüzü təhlükəsizlikdə hiss etmək istəyirik, uğurlu hiss etmək istəyirik. Rəhm et bizə, ey Rəbb, çünki imanımız kasaddır, çünki çox zəifik. Bizim gözlərimizi aç ki, Sənin çarmıxının arxasında cəlalını, həqiqi Padşahımızın izzətini görə bilək.

Amin.

†

## II İsa Çarmıxını üzərinə alır

Ey Xilaskar,
Üzərinə aldığın çarmıxın ağırlığının
əslində mənim bu dünyada yaşarkən
keçmişdə, bu gün və gələcəkdə etdiyim
günahlarımın ağırlığı olmasını necə
anlayım, buna necə inanım? Necə inanım
ki, Sən məni hələ anamın bətnində
yaratmadan öncə tanımısan, Sən əzəldən
bilirdin ki, məni kim olaraq görmək
istəyirsən və mən əslində kim olacağam.
Mənə həyat bəxş edərkən, məni bu
dünyaya gətirərkən Sən artıq bilirdin ki,
məni əbədi mühakimədən xilas etmək
üçün Sən bütün səhvlərimin və özümlə
dünyaya gətirəcəyim bütün şərin çarmıxını
üzərinə alacaqsan. Buna necə inana
bilərəm? Bir tək Sənin lütfünün gücü ilə,
çarmıxının kölgəsində duraraq, həmin
lütfü diləyirəm Səndən.
Amin.

## III İsa birinci dəfə yıxılır

Ey Rəbb,
Həqiqi Allah olaraq Sən həqiqi insan olmaqdan çəkinmədin. Sən yıxıldın: Yıxılan Allah yox, insan idi. Hər birimizin yıxılması idi. Əbədiyyətə gedən yolumuzda hələ neçə dəfə belə yıxılacağıq. Düşmənimiz oyaqdır. O, ayağımızın hər büdrəməsini ümidsizliyə çevirmək istəyir. "Yıxıldın" pıçıltısı ilə fikirlərimizi zəhərləyir. "Yıxıldın, deməli, sənin yolun bitdi. Sən də bacarmadın, Allahın da bacarmadı. Burada qal. Büdrədiyin yerdə. Bu gerçəklik ilə barış. Yolun bu hissəsini qət etdiyinə görə özünü təriflə və qalxmağı heç düşünmə. Sənin yolun buraya qədər imiş". İradəmiz şeytanın sınaqlarından iflic olduğu zaman Sən, ey Rəbb, qalxırsan. Özünə görə yox, mənə görə qalxırsan. Qan-tər içində Sən üzərinə götürdüyün mənim çarmıxımı

Qolqotaya,
mənim azadlığımın və şəfamın məkanına çatdırmaq üçün qalxırsan.
Səndə, Sən ilə mən də qalxa bilirəm.
Yalnız Səndə, yalnız Sənin gücünlə mən şeytanı susdurub yoluma davam edə bilərəm. Gücünü məndən əsirgəmə.
Amin.

†

## IV İsa Qolqotaya gedən yolda Anasına rast gəlir

Çətin günlərdə biz tez-tez qayğısız uşaqlığımızı xatırlayırıq. Allah Adəm ilə Həvvanı yetkin yaratdı, onların övladları isə artıq Allahdan uzaqlaşmış bir dünyada doğuldu. Həmin dünyada cənnət haqda bir xatirə qalmamışdır. Kim bilir, bəlkə, elə buna görə Allah bizə, insanlara, uşaqlıq dövrü haqda həyat və sevinc ilə bol xatirələr yaratmaq qabiliyyətini verib?

Həmin günəş işığına boyanan günləri yada salaraq biz sanki Allah ilə gələcəkdə yaşanacaq əbədi bəxtiyarlığı əvvəlcədən sezə bilirik. Sən də, ey Rəbb, bir zaman uşaq idin, ananın yeganə və sevilmi Oğlu idin. O, anandır ki, Sənə, ey Əzəli Kəlam, Allahın Oğlu, təhlükəsizlik, rahatlıq, ocaq hissini bəxş edib. O, anandır ki, bizdən gizli qalan illərində Sənin yeganə dəstəyin olub. Ananın məhəbbət və ağrı ilə dolu gözlərini kütlə arasında gördüyün zaman nələri xatırladın, ey Rəbb?
Yusif və Məryəm ilə keçirdiyin o qayğısız günlərimi? Ya Rəbb, ananın qəlbində yaşayan o sonsuz məhəbbət,
sədaqət və tükənməz kədər xatirinə,
bütün valideynlərə, həm həyatda olanlara,
həm də dünyasını dəyişənlərə
xeyir-dua ver.
Amin.

†

## V Kirenalı Şimon İsa Məsihə Çarmıxı daşımağa yardım edir

Ey Rəbb, bir az öncə Sənə Hosanna nəğməsini oxuyan indi isə əzablarını seyr edərək dəlicəsinə sevinən kütlənin arasında Sənin çiyinlərinə bir az istirahət verəcək insan tapıldı. Şimon adlı bir nəfər köməyinə çatdı. İki min ildən artıq zaman keçib, biz hələ də onu xoş sözlə xatırlayırıq. Adını da, haradan gəldiyini də. O zaman, əslində kim kimə yardım etdi? O Sənə, yoxsa Sən Ona? Çarmıx Yolunun bu hissəsini xatırlayaraq, ya Rəbb, Səndən bizə çarmıxımızı daşımağa bilərəkdən ya bilməyərəkdən yardım edən hər kəsə xeyir-dua verməyini diləyirik. Onları hər cür şərdən xilas et. Bizim də gözlərimizi başqalarının əzablarını görmək üçün aç ki, biz də öz növbəmizdə çarmıxının ağırlığı altında əzab çəkənlərin köməyinə çataq və heç olmasa yolun bir hissəsində onlar ilə bərabər olaq. Axı hər birində, Sən Varsan. Amin.

†

## VI Veronika İsa Məsihin üzünü silir

Cismani və ya mənəvi ağrı bizim bütün varlığımızı işğal edən günlərdə biz özümüzü təmamilə tərk edilmiş və tənha hiss edirik. Bəsit, heç bir məna daşımayan təsəllilərin səs-küyündə, bezdirici və eyni mənalı "növbətçi" dəstək ifadələrin zənguləsində səmimi mərhəmət ilə, bol və ifadəsi ilə yardıma hazır bir sima görməyə bizim necə də ehtiyacımız var. Görəsən, Veronika Səni əzablarından xilas edə bilərdimi? Və cismini ox kimi deşən ağrının zəifləməsi üçün Veronikanın Sənin üzünü silmək cəhdi çoxmu vacib idi? Məzmur deyir: "Bəşər övladlarının ən gözəli Sənsən". Budur, Səni min zərbə ilə tanınmaz etdilər. Sənin öncəki zahirini qaytarmağa heç kimin gücü çatmazdı, lakin Veronikanı bu dayandırmadı.

Onun qəlbi Sənin əzablarına etinasız qalmadı.“Qoy heç olmasa bir anlıq edama məhkum olmuş özünü yenidən insan hiss etsin” düşünərək Veronika özünü qorxmadan kütlədən ayırır. “Qoy bu mərhəmətsizlər də onda bir insan övladı görsünlər”. Ola bilsin bir anlıq Sənin üzün dəyişildi. Veronikanın dəsmalı qanı və torpağı sildi və kütlə Sənin baxışını – əzab və ağrı ilə bol, lakin nifrətsiz və mühakiməsiz baxışını tutdu. Kim bilir, neçə qəlb o an Sənə tərəf döndü. Ya Rəbb, Sənə yalvarırıq, qoy Veronikanın mərhəməti və cəsarəti bizim üçün mühakimə edilən, rədd edilən insanlara olan münasibətin canlı nümunəsi olsun. Amin.

†

†

## VII İsa ikinci dəfə yıxılır

Ya Rəbb, Sən bilirsən ki, bizdə olan şəri öz nümunəsi ilə, sözləri ilə, hərəkətləri ilə ifşa edənləri mühakimə etməkdə biz necə də cəldik. Mənəvi nüfuzu olanların çöküşünə necə də sevinirik. Əlbəttə, axı onların hər büdrəməsi bizi sanki öz günahlarımızın məsuliyyətindən azad edir. Dünya hər dəfə Sənin kilsəndə problemlər olanda bədxahcasına sevinir. Axı kilsən vasitəsi ilə yayılan Sənin Səsin heç kimi laqeyd qalmağa qoymur. Nə etməli? Ya bu Səsi eşidib arxasıca getməlisən yaxud da kilsəni susdurmağın yollarını böyük həvəslə axtarmalısan. Ya Rəbb, başqalarının çöküşünə sevinməyimizə görə, bununla özümüzə bəraət qazandırmağımıza görə, özümüzü başqalarından üstün tutduğumuza görə bizi bağışla və bizə rəhm et.

Amin.

†

# VIII İsa ağlayan qadınlara təsəlli verir

Allahın Oğlundan başqa kim bəşər
övladlarına qarşı bu dərəcədə səxavətli
və iltifatlı ola bilər? Özünün nə ilahi,
nə bəşəri ləyaqəti qalmadığı bir halda
O, başqalarının göz yaşlarına təsəlli verir.
Necə ki əzəldən Sən bütün Varlığınla
Ataya verilirsən, eləcə də burada,
bu günahkar yer üzündə Sən tamamilə
bizə həsr edilirsən, Özünü bizə bəxş
edirsən. Ey Allahın həqiqi Quzusu,
qoyma Sənin və ya başqalarının qarşısında
öz salehliyimizlə öyünək, çünki nəyimiz
varsa, Səndən almışıq, başqalarına təsəlli
verə biliriksə, deməli,
özümüz Səndən təsəlli almışıq.
Amin.

## IX İsa üçüncü dəfə yıxılır

Yenə də qəlbimdə acı fısıltı səslənir: “Bir özünə bax, sən yenə də yıxıldın, sənin kimisi Rəbbin nəyinə gərəkdir? Hamı ayaq üstə, bəziləri, hətta yüksəklikdə, sən isə? Yenə qüsurlarının çuxurundasan. Onlara sənin Allahın yardım etdi, çünki onlar səndən güclüdür. Səni isə Allahın unudub. Kilsə də səni unudub. Onun öz sevimliləri var, onlar sən qədər yıxılmazlar. Özünə hörmətin olsun, çıx bu yoldan!”. Ya Rəbb, köməyim Müqəddəs Ruhundur!

O Ruhundur ki, həvarinə bu sözləri deməyə ilham verib: “Çünki Özü sınağa çəkilib əzab çəkdiyi üçün sınağa çəkilənlərə kömək edə bilər”. Tərk et məni, şeytan. Rəbbim mənə yazılan yolum ilə artıq keçib, Rəbdə mən artıq sənə qalib gəlmişəm, Rəbdə mən artıq günahlarımın fövqündəyəm, bunu bilmirdin? Budur, çarmıx nişanı, Rəbbimin mənim günahımın üzərində qələbəsinin nişanı. Amin.

† 

## X İsanı soyundururlar

Ya Rəbb, bəşər olduğun və bu dünyaya gəldiyin gündən Sən Özün üçün yığmağa yox, Özünü bəxş etməyə gəlmisən. Görəsən, kilsəyə ibadətə gələndə, bununla Sənə minnət etmədiyimizi hələ bu həyatda olarkən anlaya biləcəyikmi? Özünün heç ilahi yox, yalnız insani ləyaqətinin son şəhadətinin libasının alınmasına səssiz qalan Rəbbə biz nəyi minnət edə bilərik? Sənin verdiyin bu Qurbana biz yalnız boş əllərimizi Sənə tərəf uzadaraq, Səni Xilaskarımız kimi iqrar edərək cavab verə bilərik. Səni bizim günahlarımızdan daha çox xilasa ehtiyacımızın olmaması qənaətimiz təhqir edir. Biz zəifik, bunu bilirsən. Sən məhz bizi Özündə göylərə yüksəltmək üçün gəldin, əzab çəkdin, Özünü Səmavi İzzətindən məhrum etdin, günahdan başqa hər şeydə bizimlə eyni oldun. Ya Rəbb, qoyma Sənin Qurbanını

öz təkəbbürümüzlə dəyərdən salaq. Şeytan bizi öyrədir ki, Sənin Qurbanına ehtiyacımız yoxdur, yaxud da Sənin Qurbanın bizi dəyişməyə qadir deyil. Şeytanın toruna düşməyə qoyma bizi. Amin.

†

## XI İsanı Çarmıxa mıxlayaraq asırlar

Budur, həmin o an
– Quzunun kəsilməsi anı.
Həmd olsun, ey Ata, Sən əzəldən bilirdin ki, yaradacağın insan Səndən üz döndərəcək və onun Sənə qayıtmasının dəyəri Oğlunun qanı olacaq. Amin. Həmd olsun, ey Oğul, Sən Atanın iradəsini qəbul etdin və bizi qanın bahasına təzmin etdin. Amin. Həmd olsun, Müqəddəs Ruh, Sən gözlərimizi həqiqətə açırsan və bizi xilası Məsihdə axtarmağa sövq edirsən. Amin.

†

## XII Məsih Çarmıxda ölür

Tamam oldu.
Fövqələqdəs Allahın anası, bakirə Məryəm ilə, bütün mələklər və müqəddəslər ilə birlikdə Çarmıxın ətəyində sükuta qərq olub duraq. Çarmıxa çəkilən Dünyanın Xilaskarı, Aləmlərin Rəbbi, Allahın Oğlu İsa Məsihdir.
Amin.

†

## XIII İsa Məsihi Çarmıxdan alırlar

Şər qüvvələrin saxta təntənəsinin anı.
Dünyanın ümidi öldürülüb.
Sükut hər yerə yayılıb.
Sənə ümid edənlərin
qəlbi qəmə qərq olub, ey Rəbb.

Həyatımızda neçə dəfə bizə elə gəlib ki, sanki Sən həqiqətən ölmüsən. Şərin içimizdə bizə qalib gəldiyinə əmin olduğumuz anda, məğlubiyyətimizi xəstə gülüş ilə qeyd etdiyimiz anda, bizə ancaq qalan günahlarımızı köhnə dostlarımız kimi qucaqladığımız anda Sənin öldüyünü bilirik. Xilas baş tutmadı. Sənmi bacarmadın, bizmi bacarmadıq – nə fərqi? Lakin biz necə də yanılırıq! Şərin əbədi olaraq qəlbimizin taxt-tacına çıxdığını düşündüyümüz zaman Rəbbin Özü qəlbimizin cəhənnəminə endiyini, onu cəhənnəmi  məhv etmək üçün endiyini ağlımıza gətirə bilərikmi? Bilərik!

Ya Rəbb, Səni gözləyirəm. Özüm özümü məhkum etdiyim cəhənnəmdə
Səni gözləyirəm, ey Xilaskar.
Amin.

†

†

## XIV İsa Məsihin dəfn edilməsi

Ya Rəbb, Sən hər şeyi Roma əsgərlərinin
Sənin qəbrinin girişinə söykədiyi daşın
arxasına apardın. Mənim ağrımı,
ümidsizliyimi, tənhalığımı. Mən onlara
o qədər vərdiş vermişəm ki, onlar olmadan
sanki özüm də  yoxam. Qoy elə də olsun.
Mən köhnə həyatım üçün yox olmaq
istəyirəm, Səninlə dəfn edilmək istəyirəm.
Çünki inanıram, üç gün keçmədən,
məndə yeni həyat doğulacaq,
Sənin həyatın, ey Ölümdən Dirilmiş
Rəbbim və bu həyatın sonu gəlməyəcək.
Bütün yol boyu məni təqib edən düşmən
isə Sənin qələbən ilə rüsvay ediləcək.
Padşahlıq, qüdrət və izzət əbədiyyən
Sənindir!
Amin.

# X Tövbə duaları



Allaha yaxınlaşın,
O da sizə yaxınlaşacaq.
Ey günahkarlar, əllərinizi paklayın!
Ey qərarsız insanlar, ürəklərinizi
saflaşdırın!
*(İncil, Yaqub 5:8)*

†

Rəbb, günah etdiyim üçün peşmanam,
islah olmaq və günahlarımın
bağışlanmasını istəyirəm.
Rəbb, mən günahkara qarşı
mərhəmətli ol.
Rəbb İsa Məsih,
mən günnahkarı bağışla.
Amin.

†

Ey Allahım, günah etməklə
cəzaya layiq olduğumu anladığıma görə
deyil, həmçinin hədsiz xeyirxah
və hər şeydən çox məhəbbətə layiq olan
Səni təhqir etdiyimi anladığıma,
günahlarıma görə bütün ürəyimlə tövbə
edirəm. Buna görə Sənin lütfünün köməyi
ilə daha günah etməməyi və günaha
aparan vəziyyətlərdən yan keçməyi
qəti qərara alıram. Amin.

# *Dualar*



***Katolik Kilsəsi***
***Azərbaycan***

## Zəbur 130

*(Davud şah və peyğəmbər)*

Ya Rəbb, dərinliklərdən Səni səsləyirəm.
Ey Xudavənd, səsimi eşit,
Yalvarış səsimi yaxşı dinlə. Ya Rəbb,
bizim təqsirlərimizi siyahıya alsan,
Bəs, ey Xudavənd,
kim bunun qarşısında dayana bilər?
Amma Sən bağışlayansan,
Ona görə hamı Səndən çəkinir.
Rəbbi gözləyirəm, döyünən ürəyim
gözləyir, Onun sözünə ümid edirəm.
Keşikçilər səhərin açılmasını gözləyər,
Bəli, keşikçilər səhərin açılmasını
gözləyər,
Qəlbimsə bundan da çox
Xudavəndin həsrətini çəkər.
Ey İsrail, Rəbbə ümidini bağla!
Çünki Rəbdə məhəbbət var,
Onda bol-bol qurtuluş var.
Ey İsrail,
O, səni bütün təqsirlərindən azad edər!

## Zəbur 51

*(Davud şah və peyğəmbər)*

Məhəbbətinə görə, ey Allah, mənə rəhm et,
Bol mərhəmətinə görə qanunsuzluqlarımı
sil. Təqsirimi tamamilə yu,
Günahımdan məni təmizlə.
Çünki qanunsuzluqlarımı bilirəm,
Günahım daim gözümün qarşısındadır.
Sənə, yalnız Sənə qarşı günah işlətmişəm,
Gözündə pis sayılanı etmişəm.
Mənə görə çıxarılan hökmündə ədalətlisən,
Məni məhkum etməkdə haqlısan.
Mən doğulandan bəri günahkaram,
Ana bətnindən belə, təqsirkaram.
Sənsə ürəkdə düzlüyün olmasını istəyirsən,
Mənə daxilən hikmət öyrət.
Məni züfa ilə pak et, təmiz olum,
Məni yu, qardan da ağ olum.
Mənə şadlıq, sevinc səsini eşitdir,
Qırdığın sümüklərim xoşhallansın.
Üzünü tut, günahlarımı görmə,
Bütün təqsirlərimi sil.

Ey Allah, məndə təmiz ürək yarat,
Daxilimə yenidən sədaqət ruhunu ver.
Məni Öz hüzurundan atma,
Müqəddəs Ruhunu məndən götürmə.
Xilasının sevincini mənə qaytar,
İtaətkarlıq ruhu verib mənə dayaq ol.
Qoy Sənin yollarını qanunsuzlara öyrədim,
Günahkarlar Sənə sarı dönsünlər.
Ey Allah, məni azad et, qan tökmək təqsirindən məni qurtar, dilim ədalətini mədh etsin. Ey Xudavənd, Sən dilimi aç, Ağzımla Sənə olan həmdlərimi bəyan edim. Sən qurbanlardan zövq almazsan, Yoxsa kəsərdim. Yandırma qurbanlarından razı qalmazsan, Allaha məqbul olan qurban sınmış ruhdur, Sən sınan və peşman olan ürəyə xor baxmazsan, ey Allah! Lütfünlə Siona yaxşılıq et, Yerusəlimin divarlarını bərpa et. Onda doğru yolla təqdim edilən qurbanlardan, bütöv yandırma qurbanlarından zövq alarsan. O zaman qurbangahında buğalar qurban kəsilər.

†

Rəbb İsa! Sən korların gözlərini açdın. Xəstələrə şəfa verdin və günahkar qadını belə bağışladın. Peterin Səni inkar etməsinə baxmayaraq, ondan öz sevgini əsirgəmədin. Mənim dualarımı eşit, bütün günahlarımı bağışla, Öz sevgini mənim ürəyimdə yenilə. Mənə məsihçi bacı-qardaşlarımla gözəl ünsiyyətdə yaşamağa kömək et ki, mən də Sənin xilasedici gücünü bütün dünyada elan edə bilim. Amin.

†

## Ümidin etirafı

Rəbb Allah, ümid edirəm ki, vəd etdiyin kimi xeyirxahlığınla günahlarım bağışlanacaq, bu həyatdan sonra isə mənə əbədi bəxtiyarlıq veriləcək, çünki Sən hədsiz əzəmətlisən, sadiq, xeyirxah və mərhəmətlisən. Buna ümid edərək yaşamağı və ölməyi qərara alıram. Amin.

† 

## Məhəbbətin etirafı

Rəbb Allah,
Səni hər şeydən çox sevirəm
və qonşumu Sənə görə sevirəm,
çünki Sən ən yüksək,
sonsuz və ən kamil xeyirxahlıqsan,
hər bir məhəbbətə layiqsən.
Sənin məhəbbətində
yaşamağı və ölməyi
qərara alıram.
Amin.

†

## Peşmanlıq duası

Ey Allahım, Sənə qarşı günah etdiyim
üçün ürəkdən peşmanam. Sənin ədalətli
hökmləndirmən səbəbilə,
amma ən çox da Səni, tamamilə yaxşı olan
və bütün sevgimi qazanan Allahımı
məmnun etmədikləri üçün
bütün günahlarımdan iyrənirəm.

## Şəfa duası

Uca Rəbbim, mənə şəfa ver!
Ürəyimə şəfa ver ki,
ancaq özüm üçün döyünməsin,
Sənin Sevginin Ruhuna açılsın.
Dilimə şəfa ver ki, heç kimi incitməsin,
təsəlli verən sözlər danışsın.
Ayaqlarıma şəfa ver ki, büdrəməsinlər,
yeni yollarda da sağlam addımlar atsınlar.
Gözlərimə şəfa ver ki,
ancaq önünə baxmasın,
baş verən hadisələrin
əsl mənasını ürəyinə daşıya bilsin.
Qulaqlarıma şəfa ver ki, bağlı qalmasınlar,
kasıbların və çarəsizlərin fəryadlarını
eşidə bilsinlər.
Əllərimə şəfa ver ki, məyus olduğu zaman
qoynumda düyünlənən yumru yox,
yardım etmək üçün başqasına uzanan əllər
olsun. Zehnimə şəfa ver ki, donmasın,
Sənin sözlərinin izləyicisi olsun.
Mənə şəfa ver ki, mən də şəfa verə bilim.
Amin.

## Bəxtiyarlıq əmrləri

«Nə bəxtiyardır ruhən yoxsullar!
Çünki Səmavi Padşahlıq onlarındır.
Nə bəxtiyardır yaslı olanlar!
Çünki onlar təsəlli tapacaq.
Nə bəxtiyardır həlimlər!
Çünki onlar yer üzünü irs alacaq.
Nə bəxtiyardır salehlik üçün acıb-
susayanlar! Çünki onlar doyacaq.
Nə bəxtiyardır mərhəmətli olanlar!
Çünki onlara mərhəmət ediləcək.
Nə bəxtiyardır ürəyi təmiz olanlar!
Çünki onlar Allahı görəcək.
Nə bəxtiyardır sülhyaradanlar!
Çünki onlar Allahın övladları adlanacaq.
Nə bəxtiyardır salehlik uğrunda təqib
edilənlər! Çünki Səmavi Padşahlıq
onlarındır. İnsanlar Mənə görə sizi təhqir
edib təqib edəndə, yalan söyləyib sizə hər
cür böhtan atanda siz nə bəxtiyarsınız!
Sevinin və şadlanın! Çünki göylərdə
mükafatınız böyükdür.

*(İsa Məsih - İncil, Mt 5:3-12)*

†

## Zəbur 91

*(Davud şah və peyğəmbər)*

Haqq-Taalanın pənahında yaşayan,
Külli-İxtiyarın kölgəsində oturan insan
Rəbb haqqında belə söyləyir:
«O, mənim sığınacağımdır, qalamdır,
Allahımdır, Ona güvənirəm».
Bil ki, O, səni ovçunun tələsindən,
Ağır xəstəliyə düşüb ölməkdən qurtarar.
Səni qanadlarının altına alar,
Pərlərinin altında sığınacaqsan.
Sədaqəti qalxanın, sipərin olar.
Nə gecənin kabusundan,
Nə də gündüz atılan oxdan,
Nə zülmətdə dolanan ağır xəstəlikdən,
Nə də günorta məhvedici qırğından
qorxmazsan.Yanında min nəfər,
sağında on min nəfər qırılsa,
Sənə xətər dəyməz.
Gözlərinlə baxacaqsan,
Pislərin cəzasını görəcəksən.

«Ya Rəbb, sığınacağımsan!»
dediyin üçün,
Haqq-Taalaya sığındığın üçün
Şərə düçar olmazsan,
Bəla çadırından uzaq qaçar.
Allah sənə görə mələklərinə əmr edər ki,
Gedəcəyin hər yerdə səni qorusunlar,
Səni əlləri üstündə aparsınlar,
Ayağın bir daşa dəyməsin.
Şiri, gürzəni ayaqlayarsan,
Gənc aslanı, əfi ilanı tapdalayarsan.
«Mən Rəbbi sevdiyinə görə
onu azad edəcəyəm,
İsmimi tanıdığına görə onu
yüksəldəcəyəm.
Məni çağırarkən ona cavab verəcəyəm,
Dar günündə ona yar olacağam,
Onu xilas edib şərəfə-şana çatdıracağam.
Onu uzun ömürlə doyduracağam,
Ona qurtuluşumu göstərəcəyəm».

†

†

## Allahın on əmri

1: Məndən başqa allahların olmasın!
2: Rəbb Allahın adını
boş yerə dilinə gətirmə!
3: Bayram günlərini
təqdis etmək borcunu yadda saxla!
4: Ata-anana hörmət et!
5: Qətl etmə!
6: Zina etmə!
7: Oğurluq etmə!
8: Yalan şahidlik etmə!
9: Heç kimin arvadına tamah salma!
10: Heç kimin əmlakına tamah salma!

†

## İki Məhəbbət əmri

Rəbb Allahı bütün qəlbinlə,
bütün varlığınla və bütün düşüncənlə sev.
Yaxınını özün kimi sev.

# † Tövbə Sirri †

Tövbəkar sakitlikdə dua edib Müqəddəs Kitab oxuyur və vicdanını sorğu-sual edərək özünü Tövbə sirri üçün hazırlamağa başlayır. Tövbəkar axırıncı tövbə sirrindən sonra etdiyi günahlara görə peşmanlıq hiss etməlidir.

## † *Başlanğıc* †

Tövbəkar Tövbə otağına və ya heç kəsin olmadığı başqa bir sakit yerə daxil olur.
Keşiş gələndən sonra tövbəkar
Xaç işarəsi çəkərək deyir:

**Ata, Oğul və Müqəddəs Ruhun adı ilə.
Amin.**

## † *Günahları etiraf edərək Epitemiyanı (peşmanlıq tapşırığını) qəbul etmək* †

Tövbəkar əvvəlcə axırıncı dəfə nə zaman tövbə etdiyini deyir, sonra etdiyi günahları güvənərək keşişə etiraf edir. Sonra tövbəkar keşişin verdiyi məsləhətlərə qulaq asıb
onun verdiyi yepitemiyanı qəbul edir.
Əgər tövbəkar istəsə, ruhani həyat haqqında suallarını keşişə verə bilər.

## † *Peşmanlıq və bağışlanma duaları* †

Bağışlanmağı qəbul etməzdən əvvəl
tövbəkar aşağıdakı dualar və ya
öz sözləri ilə peşmanlıq duası edə bilər.

†

Tanrım,
mən bütün ürəyimlə etdiyim
günahlara görə peşmanam.
Pisliyi seçib yaxşılığı ataraq
mən sənə qarşı günah etmişəm,
gərək hər şeydən əvvəl sevgi
göstərərdim. Mən Sənin köməyinlə
qətiyyətlə həyatımı dəyişdirmək
istəyirəm, daha çox günah etməmək
üçün, məni günaha aparan hər şeydən
uzaq olmaq istəyirəm.

Xilaskarımız İsa Məsih bizim üçün
əzab çəkib öldü. Rəbbim, Onun
şərəfinə görə mənə mərhəmət et.
Amin.

## † *Bağışlanmaq* †

Sonra tövbəkar baş əyir ki, keşiş öz əllərini onun başına qoyub dua etsin.

*Keşiş:* Mərhəmətli Ata Allah Öz Oğlunun ölümü və dirilməsi vasitəsilə dünyanı özünlə barışdırdı və günahların bağışlanması üçün Müqəddəs Ruhu aramıza göndərdi. Kilsə xidməti vasitəsilə Allah sənə bağışlanma və sülh versin və mən Ata, Oğul və Müqəddəs Ruhun adı ilə sənin günahlarını bağışlayıram.

*Tövbəkar:* **Amin.**

## † *Tanrıya şükür etmək* †

*Keşiş:*

Tanrıya Onun xeyirxahlığına görə şükür edək!

*Tövbəkar:*

**Çünki Onun mərhəməti sonsuzdur!**

†

Əgər Mənim adımla çağırılan xalqım
özünü aşağı tutarsa, dua edib
Məni axtararsa
və pis yollarından dönərsə,
o vaxt göydən eşidib
onların günahını bağışlayacağam
və torpaqlarını sağaldacağam.
*(Bibliya, 2 Saln 7:14)*

Rəbb deyir:
«Ana südəmər körpəsini heç unudarmı?
Bətnindən çıxan oğluna
rəhm etməzmi?
Ana öz körpəsini unutsa belə,
Mən səni əsla unutmaram.
Mən sənin adını
ovuclarımda həkk etmişəm,
Ey Sion, divarların daima önümdədir.
*(Yeşaya peyğəmbərin kitabı 49:15-16)*